AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
6 OKTYABR 2018-ci il ŞƏNBƏ № 223 (6256) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında 2018-ci il sentyabrın 6-da Zaqreb şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Xorvatiya Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**3.** "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin sərhəd hərbi dəniz bayraqlarının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamənin və onun təsvirinin layihələrini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**5.** "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti - Sərhəd Qoşunlarının və hərbi hissələrinin Döyüş Bayrağı haqqında" Əsasnamənin və "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının və hərbi hissələrinin Döyüş Bayrağının təsviri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 yanvar tarixli 14 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 20, N 4, maddə 229) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

*"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında Əsasnamə", "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri" və "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin sərhəd hərbi dəniz bayraqlarının təsviri" qəzetin 5-ci səhifəsində dərc olunur.*

## Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## V.İ.Abdullayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İdris oğlu Abdullayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 oktyabr 2018-ci il.**

## "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1103-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 8, maddə 489; 2004, N 8, maddə 616; 2005, N 1, maddələr 15, 19; 2006, N 9, maddə 743; 2008, N 7, maddələr 612, 619, N 8, maddə 719; 2009, N 4, maddə 226; 2014, N 10, maddə 1213; 2015, N 9, maddə 977; 2016, N 1, maddə 44; 2017, N 3, maddələr 358, 381; 2018, N 6, maddə 1220) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları"nın 16-cı hissəsinə "Fövqəladə" sözündən sonra "və ya hərbi" sözləri əlavə edilsin və həmin hissədə "Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən" sözləri "Fövqəladə vəziyyət haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Silahın geri alınması Qaydaları"nın 13-cü hissəsində "Müstəsna hallarda fövqəladə" sözləri "Fövqəladə və ya hərbi" sözləri ilə, "Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən" sözləri "Fövqəladə vəziyyət haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq," sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda, "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında, 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"də və 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1051-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2100) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın 4.2.5-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.2.5. kredit bürosundan dövlətə məxsus olan hüquqi şəxsə aid kredit hesabatı, həmçinin dövlətə məxsus olan hüquqi şəxsin kredit hesabatında əksini tapmayan digər borcları haqqında məlumat.".

**2.** "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 11, maddə 2030, N 12 (I kitab), maddə 2330; 2018, N 5, maddə 901) aşağıdakı dəyişikliklər edilsin:

*2.1.* həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası" üzrə:

2.1.1. 2.1.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.14. kredit hesabatı - "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş məlumat;";

2.1.2. 3.2.2-ci, 3.2.3-cü və 3.2.4-cü yarımbəndlərdə "reyestrinin məlumatına" sözləri "hesabatına" sözü ilə əvəz edilsin;

2.1.3. 5.2.4-cü yarımbəndin 3-cü abzasında "reyestrindən çıxarış" sözləri "hesabatı" sözü ilə, 7-ci abzasında "reyestrindən çıxarışlar" sözləri "hesabatları" sözü ilə əvəz edilsin;

*2.2.* həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 6.3-cü yarımbəndində "reyestri məlumatları" sözləri "hesabatı" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 5, maddə 898) ilə təsdiq edilmiş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"nin 6.2.6-cı, 6.3.3-cü və 6.3.7-ci yarımbəndlərindən "mərkəzləşdirilmiş kredit reyestrində və (və ya)" sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 6, maddə 1238) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 25-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

# Azərbaycan daha bir möhtəşəm idman tədbirinə ev sahibliyi etdi

## *Dövlət başçısı vurğulayıb ki, cüdo üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi özlüyündə böyük bir hadisədir*

**Məlum olduğu kimi, sentyabrın 20-27-si tarixlərində Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatı (DÇ) keçirilmişdir. Beləliklə, Azərbaycan Bakı-2015 ilk Avropa Oyunlarından, IV İslam Həmrəyliyi Oyunlarından və sair idman yarışlarından sonra daha bir mötəbər idman tədbirinə ev sahibliyi etdi. Qeyd edək ki, sentyabrın 21-də çempionatın açılış mərasimində Azərbaycan Prezidenti cənab İlham Əliyev, xanım Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev, həmçinin digər dövlət və hökumət rəsmiləri iştirak etmişlər. DÇ-da dünyanın 125 ölkəsindən 758 idmançı öz gücünü sınamışdır ki, bunların da 460-ı kişi, 298-i qadınlardır.**

Ümumiyyətlə, 8 gün davam edən yarış gərgin mübarizə şəraitində keçirilmişdir. Çünki, idmançıların sayının çoxluğu və güclülərin bu tədbirə qatılması yarışın nə qədər önəmli və həyəcanlı olduğunu sübut etdi. Demək olar ki, dünyanın ən güclü idmançıları - Yaponiyadan, Koreyadan, Fransadan, Rusiyadan, Belarusdan, Polşadan, Çexiyadan, Özbəkistandan və sair yerlərdən Bakıya gəlmişdirlər.

Sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları dövlətimizin başçısı və ailə üzvləri, Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer izləmişlər. Çempionatın yeddinci günü cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bilmişdir. U.Kokauri belaruslu Vladislav Tsiarpitskiyə, Polşa idmançısı Masiey Sarnackiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltiboevə qalib gələrək finala yüksəlmişdir. Həlledici görüşdə gürcüstanlı Quram Tuşişviliyə məğlub olan cüdoçumuz gümüş medalla kifayətlənib. Xatırlatmaq yerinə düşər ki, 2016-cı ildə Avropa kubokunun qalibi olan Uşanqi Kokauri həmin il Kazanda keçirilən Avropa çempionatının bürünc medalını qazanmışdı.

Sentyabrın 27-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının sonuncu günündə komanda yarışlarına start verilmişdir. Həmin gündə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin (Rusiya prezidenti sentyabrın 27-də IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmişdir), Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa və digər qonaqlar yarışlara baxmışlar.

Komanda yarışlarında Yaponiya, Koreya və Fransa komandaları gərgin idman mübarizələri şəraitində keçən yarışmalardan sonra yarımfinala vəsiqə qazanmışlar. Bunun ardınca Almaniya ilə qarşılaşmadan qalib ayrılan Rusiya yığması da yarımfinala çıxmışdır. Finalda isə Yaponiya və Fransa komandaları üz-üzə gəlmişlər.

Mübarizəyə 1/8 final mərhələsindən start verən Azərbaycan seçməsinin ilk rəqibi Avstriya olmuşdur. Bu görüşü qalib bitirən (5-1 hesabı ilə) komandamız ardınca Yaponiya ilə üz-üzə gəlmişdir. Dueldən məğlub ayrılan Azərbaycan komandası mübarizəni 1/4 finalda dayandırmışdır. Bunun ardınca təsəlliverici görüşlərə qatılan seçməmiz Hollandiya ilə qarşılaşıb və rəqibini məğlub etmişdir. Bununla da komandamız bürünc medal uğrunda görüşə vəsiqə qazansa da, sonda Rusiya cüdoçuları ilə üz-üzə gələrək məğlub olmuş və mundialı medalsız başa vurmuşdur.

**(davamı 2-ci səhifədə)**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4 və 5 oktyabr tarixli saylarımızda)*

### 15 sentyabr 2018-ci il

○ **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri:** Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

○ **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri:** Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib: Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər: Prezident İlham Əliyevin çıxışı.



○ **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri:** Azərbaycan və Türkiyə prezidentləri parad iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

○ **Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri:** Azərbaycan və Türkiyə prezidentləri birgə işçi nahar ediblər.

### 16 sentyabr 2018-ci il

○ **Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub:** Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib.

### 17 sentyabr 2018-ci il

○ **Prezident İlham Əliyev Çinin Sinxua xəbər agentliyinin baş redaktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

### 18 sentyabr 2018-ci il

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışı olub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Masallıda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı.



○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** "Masallı - Nemətləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsi istifadəyə verilib: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisənin açılışında iştirak edib.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Masallıda əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolu istifadəyə verilib: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Biləsuvarda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Biləsuvarda Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolu istifadəyə verilib: Prezident İlham Əliyevin çıxışı.

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Prezident İlham Əliyev Biləsuvarda Bayraq Muzeyinin açılışında iştirak edib.

*(davamı növbəti saylarımızda)*

# Moldovada GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib






**Bu gün Moldovanın paytaxtı Kişineu şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, quruma üzv olan ölkələrin hökumət başçılarının iştirak etdiyi toplantıda ölkəmizi Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İclasda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri, dondurulmuş münaqişələrin həlli istiqamətində yeni fəaliyyət proqramının hazırlanması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycanın GUAM-a üzv dövlətlərlə hərtərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini bildirən Baş nazirin müavini Əli Əhmədov son illər ölkəmizin iştirakı ilə bölgədə həyata keçirilən beynəlxalq infrastruktur layihələrinin səmərəli nəticələrindən bəhs edib. Ötən il Qərblə Şərqi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini diqqətə çatdıran Əli Əhmədov bu layihənin GUAM-a üzv olan ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişaf etdirilməsinə əsaslı zəmin yaratdığını bildirib.

Baş nazirin müavini qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu destruktiv mövqe, bölgədə sülh və əmin-amanlığa təhdid olmaqla yanaşı, GUAM-a üzv ölkələrin inkişafına ciddi xələl gətirir.

Görüşün iştirakçıları GUAM-a üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində həmrəy olduqlarını bildiriblər.

Toplantıda çıxış edən Moldovanın Baş naziri Pavel Flip, Ukraynanın Baş naziri Vladimir Qroysman və Gürcüstanın Baş naziri Mamuka Baxtadze təşkilatın fəaliyyət göstərdiyi illərdə beynəlxalq arenada qazandığı nailiyyətlərdən, qurumun qarşısında duran vəzifələrdən bəhs ediblər. GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması, sabit inkişafın təmin edilməsi, nəqliyyat, energetika, turizm, elm və mədəniyyət sahələrində mövcud olan əlaqələrin intensivləşdirilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məsələlərinin müzakirəsinin vacibliyini vurğulayıblar.

Sonra GUAM-a üzv olan ölkələrin hökumət başçılarının və quruma üzv olan ölkələrin gömrük idarələri arasında dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində birgə əməkdaşlıq haqqında protokol imzalanıb. GUAM ölkələrinin hökumət başçıları qurumun gələcək strategiyası ilə bağlı mətbuat konfransı keçiriblər.

**AZƏRTAC**

# Azərbaycan-Moldova əməkdaşlığının perspektivləri müzakirə olunub

**Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov oktyabrın 5-də Kişineuda Moldovanın Baş naziri Pavel Flip ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Moldova arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin daha da inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Əli Əhmədov bildirib ki, ölkələrimiz GUAM çərçivəsində dinamik əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda eyni mövqe tuturlar. Baş nazirin müavini Azərbaycan iqtisadiyyatının son nailiyyətlərindən, dövlətimizin təşəbbüsü ilə həyata keçirilən qlobal energetika və nəqliyyat layihələrindən danışıb. Eyni zamanda, vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün ağır vəziyyəti ölkəmiz üçün başlıca problem olaraq qalır.

**AZƏRTAC**

*Visente Lossertales:*

# "Bakı Ekspo 2025"in mövzusu Beynəlxalq Sərgilər Bürosunun missiyasına tam uyğundur

Bakının "Ekspo 2025" Ümumdünya Sərgisi üçün təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu çox önəmlidir. Bunun əhəmiyyətini hər kəs yaxşı başa düşür. İnsan kapitalı, daha yaxşı gələcəyin təmin edilməsinin vacibliyi hər birimizə məlumdur.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Parisdə Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədliyinə həsr olunan simpoziumda iştirak edən Beynəlxalq Sərgilər Bürosunun baş katibi Visente Lossertales söyləyib.

Baş katib deyib ki, "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə, Beynəlxalq Sərgilər Bürosunun missiyasına da tam uyğundur. "Bu, müasir dövrümüzün əsas mövzusudur. Dünyada məşğulluğun nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini bilirik. İnsan kapitalına sərmayə yatırmaqla biz daha çox nailiyyət əldə edə bilərik. Bununla da hər bir insan üçün yüksək həyat şəraiti təmin olunar", - deyə Visente Lossertales qeyd edib.

Baş katib bildirib ki, Azərbaycanın "Ekspo-2025" sərgisinə namizəd kimi böyük potensialı var. Azərbaycan beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini artıq sübut edib. Xalqın və hökumətin bu namizədliyə göstərdiyi birgə dəstək də çox önəmlidir.

**AZƏRTAC**

*Peter Fisk:*

# "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" hər bir cəmiyyətdə ehtiyac duyulan şüardır

**Bu gün bütün dünyada insan kapitalının inkişaf etdirilməsinə böyük ehtiyac var. Xalqların rifahı, sosial-iqtisadi tərəqqi bununla çox bağlıdır. Bu baxımdan Azərbaycanın "Ekspo 2025" Ümumdünya Sərgisi üçün təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu mühüm önəm kəsb edir.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Parisdə Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədliyinə həsr olunan simpoziumda iştirak edən insan kapitalı üzrə beynəlxalq ekspert Peter Fisk söyləyib.

Ekspert deyib ki, insan kapitalına sərmayə qoymaqla biz tərəqqiyə nail ola bilərik. İstedad, sağlamlıq və məşğulluq insan kapitalının vacib komponentləridir. "Azərbaycanın bu mövzunu seçməsi çox təqdirəlayiqdir. Mən bundan olduqca məmnunam. Çünki bu, hazırda bütün dünyada gündəmdə olan və hər bir ölkənin cəmiyyətində ehtiyac duyulan şüardır. Texnoloji inkişaf, innovasiyalar çox vacibdir. Lakin insan kapitalının inkişaf etdirilməsi, insanları gələcək texnoloji inkişafa hazırlamaq da xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın bu şüar altında həyata keçirdiyi layihələr gələcəyə böyük töhfə olacaq", - deyə Peter Fisk bildirib.

**AZƏRTAC**

# Azərbaycan daha bir möhtəşəm idman tədbirinə ev sahibliyi etdi

## *Dövlət başçısı vurğulayıb ki, cüdo üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi özlüyündə böyük bir hadisədir*

**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, Azərbaycan Millisi Bakıda keçirilən cüdo üzrə dünya çempionatında fərdi yarışları 11-ci pillədə başa vurdu. Komandamızın üzvlərindən Uşangi Kokauri gümüş, Hidayət Heydərov isə bürünc medal qazandılar. Bununla belə, 73 kiloqram çəki dərəcəsində Rüstəm Orucov, 100 kiloqram çəki dərəcəsində iki idmançımız - Elmar Qasımov və Zelim Votsoyev reytinqdə yüksək yerdə olmuşlar.

Təəssüf doğuran odur ki, Azərbaycan cüdo üzrə builki dünya çempionatında cəmi 2 medalla kifayətləndi. Halbuki, 2017-ci ildəki çempionatda 4 medal - 2 gümüş, 2 bürünc medal qazanılmışdı.

Qeyd edək ki, sentyabrın 27-də yarışı izləyən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həm də yığmamızın üzvləri ilə görüşmüşlər. İdmançılarımızı təbrik edib onlara yeni uğurlar arzulayan Prezident İlham Əliyev demişdir: "Onu da bilməliyik ki, bu, idmandır, idmanda qələbə də olur, məğlubiyyət də. Əsas odur ki, bizim idmançılarımız ləyaqətli döyüş nümayiş etdirsinlər. Fəxr edirik ki, bizim görkəmli cüdoçularımız var. Elnur, Nazim, Elxan olimpiya, dünya çempionları, Natiq, veteranlar Sizin üçün böyük nümunədir. Mehman da yadımdadır. Olimpiya Oyunlarında biz onun döyüşlərini böyük maraqla izləmişik. Ona görə hesab edirəm ki, bizim cüdoçularımız bundan sonra da ancaq irəliyə gedəcək, xalqımızı, Vətənimizi sevindirəcəklər".

Cüdo üzrə Bakıda keçirilən dünya çempionatında nəticələr belə olmuşdur: cəmi 22 medal qazanılmışdır. 14 qızıl medalın yarısını Yaponiya idmançıları əldə etmişlər. Qalan qızıl medallardan 2-si Koreya Respublikasına, hərəyə bir medal Fransa, Gürcüstan, İran, Ukrayna və İspaniyaya nəsib olmuşdur.

Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Azərbaycanda gedən sosial-iqtisadi inkişafı, idmana göstərilən diqqət və qayğını belə dəyərləndirmişdir: "Bakıdakı tədbir, doğurdan da, çox gözəldir, eyni zamanda, dostluq və qonaqpərvərlik bütün iştirakçıları valeh edir. Azərbaycan yalnız yüksək iqtisadi göstəricilərə malik bir ölkə deyil, eyni zamanda, mədəniyyət, idman, incəsənət və digər sahələrə böyük sərmayələr yatıran bir ölkədir. Bir çox mötəbər idman tədbirlərini, Avropa və dünya çempionatlarını təşkil edən, həmçinin bir çox idman layihələrini həyata keçirən Azərbaycan artıq dünyada inkişafa və firavan yaşayışa töhfə verən bir dövlətdir".

Qeyd edək ki, bu möhtəşəm tədbir respublikamızda cüdonun daha geniş təbliğ olunması baxımından çox böyük əhəmiyyət daşımışdır. Cüdo Azərbaycanda populyar idman növlərindəndir və ölkəmizin bütün bölgələrində bu idman növü ilə məşğul olurlar. Əvvəllər cüdo üzrə cəmi 22 klub vardısa, hazırda lisenziya alan 97 klub fəaliyyət göstərir. Qəbələ, Zaqatala, Balakən, Quba, Qusar zonasında region təlim-məşq bazaları yaradılmışdır. Bu yaxınlarda isə Sumqayıtda yeni təlim-məşq bazası istifadəyə verilmişdir. Açılış mərasimində Beynəlxalq Cüdo Federasiyasının prezidenti M.Vizer də milli komandanın məşq etdiyi baza ilə, həmçinin Sumqayıtda yeni açılan arena ilə tanış olmuşdur.

Cüdo üzrə fəaliyyət göstərən ən böyük klublar "Qəbələ", "Neftçi" və "Cüdo 2012"dir. Xatırladaq ki, builki cüdo üzrə dünya çempionatının gümüş mükafatçısı Uşangi Kokauri "Qəbələ" klubunun, bürünc mükafatçısı Hidayət Heydərov isə "Neftçi" klubunun üzvləridir.

Cüdo üzrə dünya çempionatının bağlanış mərasimində Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev mundialın bayrağını Yaponiya Federasiyasının rəhbəri Yasuxiro Yamasitaya təqdim etmişdir. Məlumat üçün bildirək ki, cüdo üzrə 2019-cu il dünya çempionatı Yaponiyanın paytaxtı Tokioda keçiriləcəkdir. Eyni zamanda, Tokio həm də, 2020-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək. İdmançılarımız bu yarışa indidən ciddi hazırlaşmağı qarşıya məqsəd qoymuşlar. Çünki onları qarşıda çox çətin mübarizə gözləyir.

Müxtəlif mötəbər tədbirlər, o cümlədən Bakı-2015 ilk Avropa Oyunları, 2017-ci ildə baş tutan IV İslam Həmrəyliyi Oyunları kimi, cüdo üzrə 2018-ci il dünya çempionatı da yüksək səviyyədə təşkil olunmaqla uğurla yekunlaşdı. Bunu tədbirdə iştirak edən beynəlxalq idman təşkilatlarının rəhbərləri, mütəxəssislər və nümayəndələri də təsdiq etmişlər. Bakının idman yarışlarına ev sahibliyi etməsinin əsas səbəblərindən biri son illərdə Olimpiya Stadionunun, cüdo üzrə dünya çempionatının keçirildiyi Milli Gimnastika Arenasının, Su İdman Sarayının, Veloparkın istifadəyə verilməsi, Stend Atıcılığı üzrə İdman Kompleksinin yenidən qurulması, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin, Bakı İdman Sarayının və başqalarının əsaslı təmir olunub yenidən qurulmasıdır. Bəli, Azərbaycan bir çox yarışlara ev sahibliyi etməsi, idmançılarımızın Avropa, dünya və Yay Olimpiya Oyunlarında yüksək nəticələr qazanması ilə bir daha dünyada idman dövləti kimi tanındığını təsdiq etmişdir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# Beynəlxalq elmi-praktik forumun iştirakçıları ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**Bakıda "Mədəniyyətlər dialoqunda təhsil: rus məktəbi dünyası" mövzusunda keçirilən beynəlxalq elmi-praktik forumun iştirakçıları oktyabrın 5-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, forumun iştirakçıları Ulu Öndərin məzarı önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, təşkilatçılarından biri Azərbaycanın Rus İcması olan beynəlxalq forum oktyabrın 5-də Bakıda öz işinə başlayıb. Oktyabrın 7-dək davam edəcək tədbirdə Azərbaycanla yanaşı, Rusiya, Polşa, Almaniya, Çexiya, Misir, Bolqarıstan və digər ölkələrin təhsil müəssisələrinin rəhbərləri və professor - müəllim heyətləri iştirak edirlər.

**AZƏRTAC**

# Tikinti obyektlərinin istismara qəbulu prosesi asanlaşdırılıb

Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən tikinti obyektlərinə verilmiş texniki şərtlər əsasında hazırlanmış elektrik və qaz təchizatı layihələrinin ekspertiza və qeydiyyatı üç iş günü müddətində həyata keçirilir. Hazırda istehlakçıların, eləcə də sahibkarların elektrik və qaz təchizatına qoşulması üçün layihələr tikinti-quraşdırma işlərinə başlamazdan əvvəl razılaşdırılır. Bu isə həmin obyektlərin istismara qəbulu prosesində yarana biləcək problemlərin vaxtında aradan qaldırılmasına, eyni zamanda, ləngimə hallarının qarşısının alınmasına xidmət edir.

Agentliyin regional bölmələri tərəfindən 2018-ci ilin yanvar-avqust aylarında enerji təchizatı üçün 68 layihə razılaşdırılıb. 1127 sayda idarə və müəssisənin isə qaz təchizatının layihə-smeta sənədləri ekspertizadan keçirilərək qeydiyyata alınıb, 37 sayda layihə-smeta sənədinin qeydiyyatından imtina edilib.

Tikinti obyektlərinin elektrik və qaz təsərrüfatlarının istismara qəbulu prosesi də Agentliyin regional bölmələri tərəfindən qanunvericiliyin tələblərinə ciddi əməl edilməklə tam obyektiv və şəffaf şəkildə həyata keçirilir. Belə ki, əvvəlki dövrlərlə müqayisədə elektrik enerjisi və qaz təchizatı üçün quraşdırılmış qurğuların istismara buraxılması məqsədilə aktın alınması prosesi sadələşdirilib, tələb olunan sənədlərin sayı əhəmiyyətli dərəcədə azaldılıb. İstismara buraxılma aktlarının verilmə müddəti isə beş iş gününə endirilib.

2018-ci ilin yanvar-avqust ayları ərzində istehlakçıların elektrik qurğularına 151 sayda istismara buraxılma aktı verilib, 1090 sayda sənaye qaz qurğusu istismara qəbul edilib. 159 sayda sənaye qaz qurğusu isə qaz xətləri layihəyə uyğun çəkilmədiyinə, qaz qurğu və avadanlıqları tam quraşdırılmadığına görə istismara qəbul edilməyib.

Bundan başqa, istismara buraxılma aktları verilərkən gələcəkdə şikayətlərin və bədbəxt hadisələrin qarşısının alınması məqsədilə çəkilmiş elektrik xətlərinin mühafizə zonasının pozulmamasına da ciddi nəzarət edilir.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ölkələri Azərbaycana 12 milyard dollardan artıq sərmayə yatırıb

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) ölkələri Azərbaycana 12 milyard dollardan artıq sərmayə yatırıb.**



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev ilə görüşündə deyib.

Nazir Şahin Mustafayev yeni vəzifəyə təyin edilməsi münasibətilə Bağdad Amreyevi təbrik edib, fəaliyyətinin türkdilli ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev türkdilli ölkələrlə əlaqələrin inkişafına böyük önəm verir.

Türkdilli ölkələr arasında iqtisadi münasibətlər inkişaf edir, ticarət əlaqələri genişlənir. 2017-ci ildə Azərbaycanın TDƏŞ ölkələri ilə ticarət dövriyyəsi 11,4 faiz, 2018-ci ilin 8 ayı üzrə isə 16 faiz artıb. İnvestisiya sahəsində qarşılıqlı səmərəli əməkdaşlıq həyata keçirilir. Azərbaycan TDƏŞ ölkələrinə 14 milyard ABŞ dollarından çox, TDƏŞ ölkələri isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan artıq sərmayə yatırıb. Nazir Şahin Mustafayev Azərbaycanın türkdilli dövlətlərin tədbirlərində fəal iştirak etdiyini və ölkəmizin bundan sonra da iqtisadi əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib, TDƏŞ-ə üzv ölkələr arasında ticarət, nəqliyyat-tranzit, turizm, İKT və s. sahələrdə də əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev qurumun bütün istiqamətlərdə, eləcə də iqtisadi sahədə üzv ölkələr arasında əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Bağdad Amreyev iqtisadiyyat nazirlərinin növbəti görüşünün Qırğızıstanda keçiriləcəyini qeyd edərək, bu tədbirin türkdilli ölkələr arasında əlaqələrin inkişafında əhəmiyyətini vurğulayıb, iclasda türkdilli ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirə ediləcəyini bildirib.

**AZƏRTAC**

# Gənclər və idman naziri Cəlilabadda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov oktyabrın 5-də Lənkəran, Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı şəhər və rayonlarının sakinlərini qəbul edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 20-yə yaxın vətəndaşın gənclər, idman və digər məsələlərlə bağlı müraciətləri dinlənilib.

İdman sahəsi üzrə müraciətlər əsasən fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təmin olunması, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrinin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələləri əhatə edib.

Gənclər sahəsi üzrə müraciətlər isə qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin fəaliyyəti və müvafiq avadanlıqla təminatı ilə bağlı olub.

Qəbulda bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Bakıda "Mədəniyyətlərin dialoqunda təhsil: rus məktəbi dünyası" mövzusunda beynəlxalq forum keçirilir





**Oktyabrın 5-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında "Mədəniyyətlərin dialoqunda təhsil: rus məktəbi dünyası" mövzusunda beynəlxalq elmi-praktik forum işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, beynəlxalq forum Rus Dilinə Dəstək Beynəlxalq Pedaqoji Cəmiyyəti, Rus Dili və Ədəbiyyatı Müəllimlərinin Beynəlxalq Assosiasiyası, Azərbaycanda Rus İcması, habelə Rusdilli Təhsil Müəssisələrinin Müəllimləri Assosiasiyasının Moskva Dövlət Pedaqoji Universiteti və Aleksandr Soljenitsın adına Rus Mühacirliyi Evi ilə əməkdaşlığı çərçivəsində təşkil olunub.

Forumu açan Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri, Rusiya Həmvətənləri Beynəlxalq Şurasının idarə heyətinin üzvü Mixail Zabelin ölkəmizin müxtəlif beynəlxalq tədbirlərə, forumlara ev sahibliyi etməsinin təsadüfi olmadığını deyib. Vurğulayıb ki, Azərbaycan əzəldən tolerantlıq diyarı kimi tanınır. Rusiya tərəfinin bu tədbir üçün məkan kimi Bakını seçməsi Azərbaycanın multikulturalizm, orta və ali təhsil sahəsində təcrübəsi ilə bağlıdır. "Önəmlisi odur ki, Azərbaycan rəhbərliyi və xalqı rus dilinə qayğı ilə yanaşır", - deyən Mixail Zabelin Rus İcması və Rusiya həmvətənləri adından Azərbaycan rəhbərliyinə və xalqına təşəkkür edib.

Diqqətə çatdırılıb ki, forumda Azərbaycanla yanaşı, Rusiya, Polşa, Almaniya, Çexiya, Misir, Bolqarıstan, Latviya və digər ölkələrin təhsil müəssisələrinin rəhbərləri və professor-müəllim heyətləri iştirak edirlər.

Mixail Zabelin forumun M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında keçirilməsinə yaradılan şəraitə görə bu ali təhsil müəssisəsinin rektoru, akademik Nərgiz Paşayevaya minnətdarlığını bildirib.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva forumun Bakıda keçirilməsinin təsadüfi olmadığını deyib, Azərbaycanda müxtəlif mədəniyyətə, dillərə mənsub etnik qrupların dinc yanaşı yaşadığını vurğulayıb. Qeyd edib ki, Azərbaycan rəhbərliyi mədəniyyətlərin dialoquna multikulturalizmin tərkib hissəsi kimi xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2016-cı ilin ölkədə "Multikulturalizm ili" elan edilməsi buna bariz nümunələrdən biridir. "Şübhəsiz, ölkəmizdə multikulturalizmin qorunub saxlanılması amillərindən biri təhsildir", - deyən Məhəbbət Vəliyeva Təhsil Nazirliyinin müxtəlif dillərdə, o cümlədən rus dilində tədrisə xüsusi diqqət yetirdiyini, mədəniyyətlərin və xalqların dialoquna töhfə verdiyini söyləyib. Belə ki, hazırda ölkədə 342 orta məktəbdə tədris rus dilində aparılır. Respublikada 120 mindən çox şagird rus dilində təhsil alır. Bundan başqa, 3086 məktəbdə rus dili xarici dil kimi tədris olunur. Rus dilindən ali təhsil sahəsində də geniş istifadə edilir. Təhsil Nazirliyinin bilavasitə tabeliyində olan 20 ali məktəbdən 14-də rus dilinin tədrisi üzrə bölmə fəaliyyət göstərir. Rus dili müəllimi hazırlığı bir neçə ali məktəbdə, o cümlədən Bakı Dövlət Universitetində, Bakı Slavyan Universitetində, habelə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında aparılır.

Məhəbbət Vəliyeva, həmçinin Rusiya Federasiyasının təhsil müəssisələrində Azərbaycan dilinin tədrisindən danışaraq deyib: "Moskvada Kərim Kərimov adına 1583 saylı gimnaziyada Azərbaycan dili və ədəbiyyatı tədris olunur. 2005-ci ildən Moskva Dövlət Linqvistik Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. Ümid edirik ki, Rusiyanın ali məktəblərində Azərbaycan dilinin tədrisi nəinki qorunub saxlanılacaq, xüsusən azərbaycanlıların yığcam yaşadıqları ərazilərdə daha da genişləndiriləcək".

Nazir müavini rus dilinin Azərbaycanda tədrisi ilə bağlı M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəaliyyətini xüsusi vurğulayıb. Diqqətə çatdırıb ki, 1993-cü ildən Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd şəhərində Azərbaycan Dövlət İqtisad Universitetinin filialı fəaliyyət göstərir. 2015-ci ildə iki ölkənin təhsil nazirlərinin iştirakı ilə Rusiya-Azərbaycan Ali Məktəbləri Assosiasiyası yaradılıb. Assosiasiyanın Azərbaycan tərəfdən həmsədri Sumqayıt Dövlət Universiteti, Rusiya tərəfdən həmsədri Ufa Dövlət Neft Universitetidir.

Məhəbbət Vəliyeva forumun mədəniyyətlərarası dialoqa dair müzakirələrin aparılması və əməkdaşlıq üçün geniş imkanlar yaratdığını deyərək iştirakçılara uğurlar arzulayıb.

Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə Azərbaycan-Rusiya əlaqələrinin, ölkəmizdə rus dilindən istifadənin tarixinə nəzər salıb. Qeyd edib ki, bu gün keçirilən forum iki ölkə arasında yüksək səviyyəli əlaqələrə daha bir nümunədir.

Rusiyanın Azərbaycandakı səfirinin müşaviri İqor Yeronin Bakıda belə bir tədbirin keçirilməsini yüksək qiymətləndirib, Azərbaycanda həm məktəblərdə, həm KİV-lərdə rus dilindən geniş istifadə olunduğunu, rus dilində kitabların təksə Rusiyadan gətirilmədiyini, respublikada da nəşr edildiyini diqqətə çatdırıb. Azərbaycanın multikulturalizm ənənəsinin dünya ölkələrinə örnək olduğunu vurğulayan İqor Yeronin Azərbaycan rəhbərliyinin müdrik siyasətini, eləcə də xalqın rus dilinə müsbət yanaşmasını qeyd edib, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib.

Bakının və Azərbaycanın arxiyepiskopu Aleksandr tarixə nəzər salaraq ümummilli lider Heydər Əliyevin natiqlik məharətini, Bakıda keçirilən tədbirlərdən birində 90 dəqiqə Azərbaycan, 90 dəqiqə də rus dilində eyni dərəcədə səlis danışmasını, fikrini dəqiqliklə çatdırmasını xatırladıb. Bu gün Azərbaycanda rus dilinin geniş dairədə işlək olduğunu deyən arxiyepiskop Aleksandr, eyni zamanda, ölkədə yaşayan digər xalqların nümayəndələrinin Azərbaycan dilini bilməsinin zəruriliyini qeyd edib. O, həmçinin Kilsənin Bilik Fondu ilə əməkdaşlığından, Azərbaycan dili kurslarının təşkil edilməsindən danışıb.

Beynəlxalq Pedaqogika Cəmiyyəti Əlaqələndirmə Şurasının sədri, Latviya Rus Mədəniyyəti Cəmiyyətinin sədri, Riqa şəhərində "Siqma" özəl məktəbinin direktoru Yelena Matyakubova Bakıya ikinci dəfədir gəldiyini deyərək, Azərbaycan xalqının xeyirxahlığına və səmimiliyinə şəxsən şahid olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, müəllimlik sadəcə bir peşə deyil, missiyadır. Habelə Latviya ilə Azərbaycanın gənc nəslindən olan nümayəndələri arasında əlaqələrin genişləndirilməsi faydalı olardı.

"Rossotrudniçestvo"nun nümayəndəsi Mark Kalinin bu təşkilatın rəhbəri Eleonora Mitrofanovanın forum iştirakçılarına təbrik məktubunu oxuyub. O, "Rossotrudniçestvo"nun Bakıda fəaliyyət göstərən nümayəndəliyinin iki xalq arasında əlaqələrin daha da genişlənməsi istiqamətində həyata keçirdiyi layihələrdən söhbət açıb, forumun əhəmiyyətini vurğulayıb.

Çıxış edənlər Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırıblar.

Tədbirdə Rusdilli Təhsil Müəssisələrinin Müəllimləri Assosiasiyasının rəhbəri Lyubov Yakunina A.S.Puşkin medalı ilə təltif olunub. Medalı Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva təqdim edib. O, Lyubov Yakuninanın fəaliyyətini yüksək qiymətləndirib, ona səmimi arzularını çatdırıb.

Rus Dilinə Dəstək Beynəlxalq Pedaqoji Cəmiyyətinin medalı isə Səbail rayonundakı 132-134 nömrəli təhsil kompleksinin direktoru, Əməkdar müəllim Sara Xanlarovaya təqdim edilib. Tədbirdə, həmçinin bir qrup müəllimə diplomlar və mükafatlar verilib.

Forum işini plenar iclasla davam etdirib. Plenar iclasa Moskva Dövlət Pedaqoji Universitetinin Dinlərin və Sivilizasiyalararası Münasibətlərin Tarixi-Mədəni Tədqiqləri Mərkəzinin direktoru Yelena Omelçenko və Bakı Slavyan Universitetinin prorektoru, professor Rafiq Novruzov moderatorluq ediblər.

Plenar iclasda "Təhsil sahəsində millətlərarası və konfessiyalararası dialoq", "Rus dili və çoxdillilik: məktəblərdə polimədəni təhsilə yanaşmalar", "Polimədəni mühitdə rusdilli təhsil haqqında", "Rus emiqrasiyasının tarixi və mədəni irsinin qorunub saxlanması məqsədilə Rus Mühacirliyi Evinin fəaliyyəti haqqında" və digər mövzularda məruzələr dinlənilib.

Forumun tədbirləri oktyabrın 6-də İsmayıllı rayonunun İvanovka kəndində rus məktəbi bazasında keçiriləcək.

**AZƏRTAC**

*Aleksandr İşşein:*

# Rus dili Azərbaycanda geniş yayılıb

**Rus dili Azərbaycanda geniş yayılıb. Ölkəmizin bir çox vətəndaşı bu dilin vasitəsilə rus mədəniyyəti, ədəbiyyatı və incəsənəti ilə tanış olurlar. Ən başlıcası isə dünya elminin nailiyyətlərini öyrənirlər.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Mədəniyyətlərin dialoqunda təhsil: rus məktəbi dünyası" mövzusunda Bakıda keçirilən beynəlxalq elmi-praktik forumun iştirakçısı, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşşein deyib.

O bildirib ki, rus dili təkcə ədəbiyyatda deyil, ümumilikdə, humanitar elmlərdə də biliklərin artırılmasına kömək edir. Bununla əlaqədar M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında keçirilən forum çox vacib hadisədir. Bu forumun keçirilməsi mədəniyyət sahəsində ölkəmizə göstərilən böyük marağın bariz nümunəsidir.

**AZƏRTAC**

*Mixail Zabelin:*

# Bütün dünyadan gələn qonaqlar Azərbaycanın inkişafının şahidi olacaqlar

**Budəfəki forum Azərbaycanda keçirilən ilk beynəlxalq tədbir deyil. Keçən il Bakıda "Rus icması - 20 il yeni Azərbaycanın xalqları ailəsində" mövzusunda respublika konfransı keçirilib. Builki nüfuzlu forumun işində Misir, Almaniya, Serbiya, Belarus, Çexiya, Rusiya, Latviya, Kanada, Ukrayna, Bolqarıstan və digər ölkələrdən gələn nümayəndə heyətləri iştirak edəcəklər. Ölkəmizin qonaqlarına respublikamızın və bizim doğma Bakı şəhərinin inkişaf səviyyəsini nümayiş etdirmək bizim üçün çox vacibdir.**

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisinin deputatı Mixail Zabelin bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.

M.Zabelin belə bir forumun M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında keçirilməsinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bütün dünyadan gələn qonaqlar Azərbaycanın inkişafının şahidi olacaqlar.

Rus icmasının rəhbəri daha sonra deyib: "Azərbaycanda bərqərar olmuş tolerantlıq və multikulturalizm ab-havasını, həm rus dilinə, həm də bütün başqa dillərə xeyirxah münasibəti qonaqlarımıza nümayiş etdirmək bizim üçün vacibdir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif millətlərin nümayəndələri öz ana dilində təhsil almaq hüququna malikdir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, ölkəmizə gələn qonaqları Azərbaycan xalqının mədəniyyəti və məişəti ilə tanış etmək lazımdır, qoy onlar ölkəmizin yüksək inkişaf səviyyəsini öz gözləri ilə görsünlər. Forumun Bakıda keçirilməsi təşəbbüsünü beynəlxalq təşkilatlar - Moskva Dövlət Pedaqoji Universiteti (MDPU) və Rus dili və ədəbiyyatı müəllimlərinin Beynəlxalq Assosiasiyası irəli sürüb. Onlar Azərbaycanda rus dilinə və başqa mədəniyyətlərə necə qayğı və həssas münasibət bəslədiyini görürlər".

M.Zabelin bildirib ki, forum iştirakçıları sabah Azərbaycanın İsmayıllı rayonundakı İvanovka kəndinə yola düşəcəklər. Qonaqlar həmin kənddə yığcam şəkildə yaşayan rus əhalisinin həyat şəraiti ilə tanış olacaqlar. Forum iştirakçıları İvanovkada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə tikilmiş yeni məktəbə də baş çəkəcəklər.

**AZƏRTAC**

# Beynəlxalq forumun iştirakçıları Bakı Dövlət Universitetində olublar

**Bakıda "Mədəniyyətlər dialoqunda təhsil: rus məktəbi dünyası" mövzusunda keçirilən beynəlxalq elmi-praktik forumun iştirakçıları oktyabrın 5-də Bakı Dövlət Universitetində (BDU) olublar.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə BDU-nun rektoru, akademik Abel Məhərrəmov Moskva şəhərinin ictimai və regionlararası əlaqələr komitəsinin sədr müavini, professor Yuriy Qoryaçov və Azərbaycanda Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin ilə görüşüb. Görüşdə BDU-nun beynəlxalq əlaqələrindən danışan A.Məhərrəmov ali təhsil ocağının Rusiyanın bir sıra nüfuzlu universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. Eyni zamanda, uzun illərdir universitetdə Rus Mərkəzinin fəaliyyət göstərdiyini deyən Abel Məhərrəmov rus dili və mədəniyyətinin təbliği, tədrisi istiqamətində görülən layihələrdən danışıb.



Forumun əhəmiyyətindən danışan Yuriy Qoryaçov tədbirdə Azərbaycanla yanaşı, Rusiya, Polşa, Almaniya, Çexiya, Misir, Bolqarıstan və digər ölkələrin təhsil müəssisələrinin rəhbərlərinin və professor-müəllim heyətlərinin iştirakını yüksək dəyərləndirib.



Görüşün sonunda rektor A.Məhərrəmova "Mədəniyyətlər dialoqunda təhsil: rus məktəbi dünyası" forumunun və Rus Dilinə Dəstək Beynəlxalq Pedaqoji Cəmiyyətinin VIII konfransının keçirilməsinə göstərdiyi köməyə görə təşəkkürnamə təqdim olunub.

Sonra forum iştirakçıları BDU-nun nəzdində fəaliyyət göstərən Rus Mərkəzində bu ali təhsil ocağının rus dili kafedralarının müəllimləri ilə görüşüblər. Qonaqlara Rus Mərkəzinin yaranma tarixi, fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, mərkəzdə mütəmadi olaraq rus mədəniyyətinin təbliği ilə bağlı tədbirlər, tələbələr üçün ödənişsiz rus dili kursları təşkil olunur. Tələbələrin mərkəzin Rusiyanın Azərbaycandakı səfirliyi və rus icmaları tərəfindən təmin edilən zəngin kitabxanasından istifadəsinə şərait yaradılır.

**AZƏRTAC**

# Aida İmanquliyeva - Azərbaycanda ilk şərqşünas professor

**"Azərbaycan qadını" dedikdə gözlərimizin önündə hansı obraz canlanır? Ev xanımı, gözəl ana və həyat yoldaşı? Bu stereotipi yox etmək üçün sizə Azərbaycan şərqşünaslığında yeni dövr ərəb ədəbiyyatının ilk tədqiqatçısı Aida İmanquliyeva haqqında danışacağam. Oktyabrın 10-da bu heyrətamiz taleyə malik qadının doğum günü Azərbaycanda növbəti dəfə qeyd olunacaq.**

Bu fikirlər AZƏRTAC-ın Rusiya Federasiyasındakı xüsusi müxbiri Fəridə Abdullayevanın www.russia-on.ru internet saytında yerləşdirilmiş məqaləsində yer alıb.



Məqalədə qeyd edilir ki, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva Bakıda, görkəmli Azərbaycan jurnalisti, pedaqoqu, Əməkdar elm xadimi Nəsir İmanquliyevin ailəsində dünyaya gəlib. Nəsir İmanquliyev XX əsrin ortalarında populyar olan "Bakı" və "Baku" axşam qəzetlərinin əsasını qoyub. İnternetin və müxtəlif xəbər telekanallarının olmadığı həmin illərdə bakılılar işdən sonra axşam saatlarında satışa çıxarılan "Bakı" qəzetini almaq üçün köşklərin qarşısında növbəyə dururdular. Yəqin ki, jurnalistika ilə bağlılığı olan bir çoxları bilirlər ki, ötən əsrdə gün ərzində baş verən aktual xəbərlərin toplandığı gündəlik qəzeti buraxmaq heç də asan deyildi. Nəsir İmanquliyev Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində dərs də deyirdi. Orta nəsildən olan azərbaycanlı jurnalistlərin bir çoxu Nəsir müəllimin tələbələri olub.

Orta məktəbi qızıl medalla bitirən Aida xanım Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində yeni açılmış ərəb bölməsinin ilk tələbələrindən biri idi. O, sonra təhsilini keçmiş SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunda davam etdirib.

Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru, ümumittifaq Şərqşünaslar Cəmiyyətinin üzvü, SSRİ-də Şərq ədəbiyyatının tədqiqatı üzrə Ümumittifaq Əlaqələndirmə Şurasının üzvü, Azərbaycanda və bütün Sovet İttifaqında yeni ərəb ədəbiyyatı üzrə əsas tədris kursunu yaradanlardan biri olub. O, üç monoqrafiyanın ("Mixail Nuayme və Qələm Assosiasiyası", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri"), 70-dən çox elmi məqalənin müəllifi və Şərq ədəbiyyatı haqqında yazılmış bir çox məqalənin redaktoru olub. Professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslığını bir çox yaxın və uzaq ölkələrdə elmi konfrans və simpoziumlarda ən yüksək səviyyədə təmsil edib.

Aida İmanquliyeva gözəl övlad, həyat yoldaşı və ana idi. Onun ömür-gün yoldaşı Arif Paşayev fizika sahəsində görkəmli alim və Milli Aviasiya Akademiyasının rektorudur. Ailədə iki qız övladı böyüyüb. Ailənin böyük qızı - Nərgiz Paşayeva da həyatını elmə həsr edib. O, akademik, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı - Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiridir. Mehriban xanım milyonlarla insanın məhəbbətini qazanıb. O, xeyriyyəçiliklə çox məşğul olur, onu tez-tez insanların, xüsusən yardıma və qayğıya ehtiyacı olan uşaqların arasında görmək olar. Mehriban xanım "Rossiya 1" televiziya kanalına müsahibəsində jurnalistin "Sizin ağladığınız hallar olurmu?" sualına cavabında deyib: "Nadir hallarda, amma başqalarının yanında heç vaxt. Mənim 27 yaşım olanda anamı itirdim. Anamı itirəndə onun cəmi 53 yaşı var idi. O, inanılmaz dərəcədə gözəl, güclü, xoşbəxt qadın idi. Azərbaycanda ilk şərqşünas professor, Şərqşünaslıq İnstitutunun rəhbəri idi. Altı ay ərzində gözümün qabağında, qollarım üstündə bu insanı itirdim. Yəqin ki, əsas göz yaşlarımı o vaxt axıtmışam. Bu itki, yəqin ki, məni çox möhkəmlətdi".

Təəssüf ki, Aida xanım həyatdan çox tez, 53 yaşına çatmadan köçdü. Zərif və şəfqət dolu qəlbi olan bu xanım-alim ətrafındakı insanların problemləri ilə maraqlanır, hamıya qayğı və nəvazişlə yanaşırdı. Çoxşaxəli yaradıcılıq və ictimai fəaliyyətinə baxmayaraq, Aida xanım Şərq qadınına xas olan incə ruhunu qoruyub saxlayan çox gözəl həyat yoldaşı, mehriban ana, qayğıkeş nənə, əsl aristokrat qadın idi. Bu gün onun həyatını övladları və nəvələri davam etdirir, xatirəsi isə elmi əsərlərində yaşayır.

**AZƏRTAC**

# Qəbələ: Təhsilə qayğı ön plandadır



*Onsuz da inkişaf, gözəllik çələnginə bürünən qədimliyinin ənənələrini yaşadan, dünyaya çıxan, dünyanı özünə gətirən Qəbələ 2017-2018-ci dərs ilinə daha cazibədar füsunkarlıqla, tərəqqi və əzmkarlıqla, digər sahələrdə olduğu kimi, təhsildə də qazandığı ürəkaçan göstəricilərlə qədəm qoymuşdur.* ***Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova*** *bölgə müxbirimizlə bu barədəki söhbətində demişdir:*

—Müstəqilliyinin üçüncü on illiyini yaşayan respublikamızda ümumi təhsilin inkişafına diqqət və qayğı ildən-ilə artırılır. Son illər bu sahədə əldə olunan nəticələr də bunu aydın göstərir. Rayonumuzda da 2017-1018-ci dərs ilinin yekunlarının təhlili deməyə əsas verir ki, Qəbələdə də bu sahə daim gündəmdədir. Onun tərəqqisi naminə lazım gələn bütün tədbirlər məqsədyönlü şəkildə həyata keçirilir. Təhsilin səmərəlilik və keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dövrün tələbinə uyğun təhsillə əhatə olunması, cəmiyyətin səviyyəli şəxsiyyət, vətənpərvər ruhlu insan kimi formalaşması daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Ən inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslansaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır". "Təhsildə keyfiyyət ili" olan 2017-2018-ci dərs ilinin yekunları göstərir ki, rayonumuzda bu istiqamətdə yaxşı nəticələr əldə olunur. Fikirlərimi konkret faktlarla izah etsəm, hər şey aydın olar. Rayonumuzun 68 ümumtəhsil məktəbində təhsil alan 17150 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2279 nəfər müəllim məşğul olmuşdur. "Təhsildə keyfiyyət ili" ilə bağlı hazırlanmış fəaliyyət planına əsasən 2016-2017-ci dərs ilinin əsas göstəricilərinin təhlili aparılmış, o cümlədən son üç ildə buraxılış imtahanlarında şagirdləri davamlı olaraq zəif nəticə, eyni zamanda davamlı olaraq yaxşı nəticə göstərən məktəb müəyyən olunmuşdur.

2017-2018-ci dərs ilində IX və XI sinif şagirdlərinin buraxılış imtahanlarının, ali və orta ixtisas məktəblərin qəbulun nəticələri əvvəlki dərs ilindəkindən yaxşı olmuşdur. İki mərhələdə keçirilən IX sinif məzunlarının buraxılış imtahanının yekununda 75,36 faiz müvəffəqiyyət əldə olunmuşdur ki, bu da əvvəlki dərs ilindəkindən yüksəkdir.

XI sinif məzunları üçün keçirilən buraxılış imtahanlarının nəticələri də 2016-2017-ci dərs ili ilə müqayisədə yüksəkdir. XI sinif məzunlarından 1164 nəfər tam orta təhsil kursu üzrə attestat almışdır. Onlardan şəhər 3 saylı tam orta məktəbin məzunu Gülsüm Quliyeva qızıl medal, 84 nəfər fərqlənmə attestatı almış, 1079 nəfər isə adi attestatla məktəbi bitirmişdir.

2016-2017-ci dərs ilində ümumi orta təhsil pilləsində kurikulumla tədris prosesi başa çatdığından yola saldığımız dərs ilində X siniflərdə təlim prosesi həm təmayüllü, həm də adi siniflərdə davam etdirilmişdir. Bu məqsədlə valideynlər, pedaqoji kollektivlər, şagirdlər arasında maarifləndirmə tədbirləri keçirilmişdir.

Təhsilin təmayülləşdirilməsi istedadlı şagirdlərin daha dərin və fundamental bilik almalarına şərait yaratmışdır. Keçirilən monitorinqin nəticələrinə görə şəhər 4 saylı, Vəndam qəsəbə 1 saylı, Tüntül, Nohurqışlaq kənd tam orta məktəblərində bu sahədə vəziyyətin daha yaxşı olduğu müəyyən edilmişdir.

Bir daha qeyd edim ki, müasir dövrdə ümumtəhsil məktəblərinin qarşısında duran ən ümdə vəzifə şagirdlərə dərin, fundamental, keyfiyyətli təhsil vermək, ölkəmiz üçün əsl vətəndaş yetişdirmək, təhsilalanların tələbatını sürətlə dəyişən dünya ilə uzlaşdırmaqdan ibarətdir. Bu isə hər bir müəllimin şah əsəri olan dərs prosesindən keçir. Rayonumuzda təlimin texniki vasitələrindən, informasiya-kommunikasiya texnologiyalarından, elektron lövhələrdən istifadə etməklə öz dərslərini yüksək təlim göstəriciləri ilə quran çoxsaylı müəllimlərimizdən söhbət düşəndə Fazil Atakişiyevin, Elmira Mustafayevanın, Zöhrə Mirzəyevanın, Şəmsiyyə Bayramovanın, Lalə Cəfərovanın, Leyla Abdullayevanın və başqalarının adları hörmətlə çəkilir.

Şagirdlərin dərin, fundamental bilik almalarında, istedadlı şagirdlərin müəyyən sahələr üzrə istedadlarının üzə çıxarılmasında, həmin uşaqlarda yaradıcılıq, tədqiqatçılıq meyillərinin gücləndirilməsində fənn olimpiadaların rolu böyükdür. 2017-2018-ci dərs ilində 6 nəfər şagirdimiz respublika turunun qalibi olmuşdur.

Qeyd edim ki, fənn müsabiqələrinin nəticələrinə görə Təhsil Nazirliyi tərəfindən 17 şəhər və rayonda istedadlı uşaqlardan ibarət təmayüllü siniflər təşkil olunmasına qərar verilmişdir. Sevindirici haldır ki, Qəbələ rayonu da həmin rayonların sırasındadır.

Şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında hərbi idman oyunlarının keçirilməsinin böyük rolu var. Bu baxımdan "Şahin", "Sərhədçi", "Gənc xilasedici" müsabiqələri xüsusi əhəmiyyət daşıyır. Vəndam qəsəbə 1 saylı tam orta məktəbin komandası "Sərhədçi" hərbi-idman oyununun zona turunun qalibi olmuş, Astara şəhərində keçirilən respublika yarışında 5-ci yeri tutmuşlar.

17-23 iyul 2018-ci il tarixində "Təhsil Avtobusu-2018" Yay məktəbində iştirakçı rayonlardan biri də Qəbələ olmuşdur. Cığatelli kənd tam orta və Seyidqışlaq ümumi orta məktəblərin 7-8-9-cu sinif şagirdləri "ASAN Xidmət" Mərkəzində təlimlərdən keçmiş, təhsil proqramı və komanda — öyrədici oyunların iştirakçısı olmuşlar. "Təhsildə keyfiyyət ili" çərçivəsində ilk dəfə təşkil olunmuş pedaqoji mühazirələr müsabiqəsində rayonumuzun müəllimləri də fəal iştirak etmişlər.

2017-2018-ci dərs ilində rayon məktəblərini bitirən 1164 nəfərdən 814 nəfəri ali məktəblərə sənəd vermiş, onlarda 508 nəfəri tələbə adını qazanmış, 50 nəfər 600-dən çox bal toplamışdır.

Məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan məktəblər şəhər 2, 3, 4, 5, Vəndam qəsəbə 1, 2 saylı Hacallı, Mirzəbəyli, Həmzəlli, Bunud, Nohurqışlaq, Tüntül, Mıxlıqovaq, Xırxatala, Yemişənli, Dızaxlı kənd tam orta məktəblərinin məzunları xüsusilə fərqlənmişlər.

Artıq 2017-2018-ci dərs ili başlanmışdır. Bu sahədə də rayonumuzun məktəblərində xeyli işlər görülmüşdür. Müəssisələrin yanacağa olan tələbatı müəyyən edilmiş, odunla qızdırılan məktəblərin tələbatı dəqiqləşdirilmişdir. Odun tədarükünə artıq başlanılmışdır. İstilik sistemi ilə işləyən təhsil müəssisələrində təmir işləri aparılmış, nasaz vəziyyətdə olan motorlar, su nasosları təmir olunmuşdur. Məktəblərin dərsliklə təminatında, eləcə də məktəb kitabxanalarının fondunun zənginləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Məktəblərə 87 adda 65874 ədəd dərslik, 27 adda 3214 ədəd müəllimlər üçün vəsait verilmişdir.

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi məsələləri də unudulmamışdır. Laza kəndində 80 yerlik, Zərgərlidə 56 Modul tipli yeni məktəb binası tikilmişdir.

—Mövcud potensial qüvvədən maksimum istifadə, məktəblərdə yüksək intizam, işgüzarlıq, qayğıkeşlik mühiti yaratmaq, bir sözlə bu günün və gələcəyin fəal, bilikli, geniş dünyagörüşlü, zəngin mənəviyyatlı gənclərini yetişdirmək fəaliyyətimizin ana xəttidir, - deyə şöbə müdiri söhbətini yekunlaşdırdı.

**Söhbəti hazırladı:**
**Rasim AMANOV,**
**"Respublika".**

# AMALIMIZ TƏHSİLİN KEYFİYYƏTİNİ DAHA DA YÜKSƏLTMƏKDİR

Ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil strategiyası, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edərək, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkə rəhbərinin Azərbaycanda təhsilin ən yüksək səviyyədə inkişaf etdirilməsi ilə bağlı dövlətin, cəmiyyətin qarşısına qoyduğu hədəflər reallığa əsaslanır. Kəlbəcər rayonunda da son illər təhsilin uğurları ürəkaçandır. Bu sahədə çox ciddi addımların atılması, yeni təlim və metodlardan səmərəli istifadə etmək diqqət mərkəzində saxlanılmış və bu da öz bəhrəsini vermişdir.

**Rayon təhsil şöbəsinin müdiri təcrübəli pedaqoq Elmira Şükürovadan** məktəblərdə təhsilin vəziyyəti və qazanılan uğurlar və perspektivlər haqqında məlumat verməyini xahiş etdik. O, qeyd etdi ki, ölkəmizin əldə etdiyi müstəqillik xalqımızın ən dəyərli sərvəti olaraq əbədi və sarsılmaz xarakter almışdır. Müasir dövrdə hər bir ölkənin inkişaf səviyyəsi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Azərbaycanda təhsilin yeni ideyalar zəminində inkişafı onun mahiyyət və məqsədinə yeni baxışların formalaşması ilə müşayiət olunur.

''Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır'' müddəasını strateji vəzifə kimi qarşıya qoymuş ümummilli lider Heydər Əliyevin bu fikirlərini, "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir'' fikirləri ilə tamamlayan, təhsili cəmiyyətin ən prioritet sahəsinə çevirən möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanın davamlı inkişafını bilavasitə təhsilin inkişafında görür. Məktəblərin maddi tədris bazası günü-gündən möhkəmlənir, zənginləşir və yeni informasiya, kommunikasiya texnologiyaları ilə təchiz olunur, müasir tələblərə cavab verən beynəlxalq standartlara uyğun yeni dərsliklər hazırlanır. Məlum olduğu kimi, Təhsil nazirinin 28.08.2017-ci il tarixli 261 nömrəli əmri ilə 2017-2018-ci dərs ilinin "ümumi təhsildə keyfiyyət ili" elan edilməsi ilə bağlı əmr imzalanmışdır. Həmin əmrin icrası ilə bağlı Kəlbəcər Rayon Təhsil Şöbəsinin 7 sentyabr 2017-ci il tarixli 218 nömrəli əmri ilə İllik Fəaliyyət planı tərtib edilmiş, bununla bağlı rayonun ümumtəhsil məktəblərində maarifləndirmə işləri aparılmışdır. 2017-2018-ci dərs ilində "Təhsildə keyfiyyət ili" çərçivəsində pedaqoji mühazirələr təşkil edilmişdir. Pedaqoji mühazirələrdə məktəb rəhbərləri, müəllimlər, psixoloqlar, uşaq birliyi rəhbərləri, məsləhətçilər, metodistlər iştirak ediblər. Pedaqoji mühazirələrin əsas məqsədi ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaqdır. Mühazirələr ümumi təhsildə keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı fəaliyyətlərə dair mövzular üzrə keçirilmişdir. Pedaqoji mühazirələrdən innovativ xarakterə, səmərəli təcrübəyə əsaslanan mövzular seçilərək ölkə üzrə təşkilat komitəsinə təqdim edilmişdir. "Təhsildə keyfiyyət ili" çərçivəsində pedaqoji mühazirələrin keçirilməsi ilə bağlı məktəblərdə pedaqoji mühazirələr yazılmış, 54 mühazirə məktəblər tərəfindən Kəlbəcər Rayon Təhsil Şöbəsinə təqdim olunmuşdur. Kəlbəcər Rayon Təhsil Şöbəsində və Bakı şəhərində fəaliyyət göstərən 126 nömrəli tam orta məktəbdə pedoqoji mühazirələr dinlənilmiş, və elektron informasiya daşıyıcısına köçürülmüşdür. Son dövrlər ümumtəhsil məktəblərində şagirdlərə pulsuz dərsliklərin paylanması, təlim-tərbiyə şəraitinin yaxşılaşdırılması, maddi və mənəvi cəhətdən köhnəlmiş məktəblərin əsaslı təmir edilməsi və yenidən qurulması, istedadlı şagirdlərin olimpiada hərəkatının gücləndirilməsi, tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiq edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində sağlam rəqabətin yaranması və onların əməkhaqqının artırılması ilə nəticələnən diaqnostik qiymətləndirmənin keçirilməsi ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əhəmiyyətli tədbirlərdəndir. Kəlbəcər rayonundan məcburi köçkün düşmüş, hazırda respublikanın ayrı-ayrı bölgələrində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin uşaqlarını icbari təhsilə cəlb etmək, müəllim və digər məktəb işçilərini işlə təmin etmək məqsədi ilə 2017-2018-ci dərs ilində 109 ümumtəhsil məktəbi təşkil olunmuşdur ki, onlardan 94-ü tam orta, 15-i isə ümumi orta məktəblərdir. I-XI siniflər üzrə 1288 sinif komplektində 14773 nəfər şagird təhsilə cəlb edilmişdir. I sinfə 1420 nəfər, X sinfə isə 1124 nəfər şagird qəbul edilmişdir. Gənc nəslin təlim-tərbiyəsi ilə 2887 nəfər müəllim məşğul olur ki, onlardan 429 nəfəri ibtidai sinif müəllimləridir. 40 məktəbəhazırlıq qrupuna 689 nəfər uşaq cəlb olunmuşdur.

Rayonun ümumtəhsil məktəbləri respublikanın 19 şəhər və rayonunun 76 yaşayış məntəqəsində fəaliyyət göstərir. Kəlbəcər rayonunun təkcə Bakı şəhərində 15, Gəncə şəhərində 15, Mingəçevir şəhərində 7, Bərdə rayonunda 18, Goranboy rayonunda 14, Göygöl rayonunda 9, Yevlax rayonunda 9 məktəbi fəaliyyət göstərir. Dərs ili ərzində RTŞ-nin metodistləri tərəfindən rayonun ümumtəhsil məktəblərində ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrində şagirdlərin bilik səviyyəsinin öyrənilməsi, əlaçı və xüsusi istedada malik şagirdlərin aşkar edilməsi istiqamətində mütəmadi monitorinqlər aparılmışdır.

ATİAHİ Kəlbəcər rayon komitəsinin dəstəyi ilə məktəblərdə milli bayramlar - "Novruz bayramı", "Qurban bayramı", "Ramazan bayramı", "Respublika Günü", "Konstitusiya Günü" , "Yeni il", "Dünya Azərbaycanlılarının Həmrəylik Günü", 8 Mart Beynəlxalq Qadınlar bayramı qeyd edilmişdir. 720 nəfər aztəminatlı ittifaq üzvlərinə maddi yardım verilmişdir. 38 nəfər ittifaq üzvü respublikamızın müxtəlif sanatoriya və istirahət mərkəzlərində istirahət etmiş, müalicə almışlar. Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı qüvvələrin yaranmasının 100 illiyi münasibətilə Murovdağda yerləşən "N" saylı hərbi hissəyə plazma televizor hədiyyə edilmiş, əsgər və zabitlərlə bayram tədbiri keçirilmişdir. Diaqnostik qiymətləndirmədə, təhsil sahəsində yüksək nəticələr göstərmiş müəllimlər, idman və müxtəlif müsabiqələrdə yüksək nəticələr əldə etmiş şagirdlər mükafatlandırılmışdır. Möhtərəm Prezidentimizin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" layihəsində iştirak etmək üçün məktəblər arasından bilik və bacarığı ilə seçilən 16 nəfər IX-XI sinif şagirdləri 2017-ci noyabr ayının 12-17-si cənub bölgəsinə, 2018-ci il mart ayının 16-20 tarixlərində isə şimal-qərb bölgələrinə gəzintiyə göndərilmişdir.

"2017-2018-ci dərs ilində IX və XI sinifdə buraxılış imtahanlarının yüksək səviyyədə keçirilməsi, məzunların imtahan mərkəzlərinə vaxtında çatdırılması ilə bağlı şagird və valideynlər arasında maarifləndirmə işləri aparılmış, müəllim və məktəb rəhbərlərinin məsuliyyətlərinin artırılması məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir. XI sinif məzunlarının 66%-i, yəni 887 nəfəri qəbul üçün ali məktəblərə sənəd vermiş, ayrı-ayrı ixtisas qrupları üzrə sənəd verənlərdən 553 nəfəri ali məktəblərə qəbul olmuşdur. Bundan əlavə, əvvəlki illərin məzunlarından 21 nəfər ali məktəblərə qəbul olmuşlar. Rayon üzrə qəbul olunanlardan 75 nəfəri 500-dən yuxarı, 36 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Bir nəfər məzun Ali Hərbi Akademiyaya, 18 nəfər məzun isə Polis, Sərhəd qoşunları, Aviasiya, Dəniz, Fövqəladə Hallar, Gömrük akademiyalarına qəbul olmuşdur.



Bu gün məktəblərimizdə öz çətin və şərəfli vəzifəsinə sadiq olan və ona tam məsuliyyətlə yanaşan, ağlı və zəkası, biliyi ilə fərqlənən, cəmiyyətin inkişafına öz xeyirxah əməli ilə töhfələr verən qabaqcıl müəllimlərimiz çoxdur. Biz öz peşə ustalığı, zəkası və davranışı ilə seçilən, dərs dediyi şagirdlərə yorulmadan elm və bilik verən təhsil fədaisi olan müəllimlərimizlə həmişə fəxr etmişik. Diaqnostik Qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərin bilik və bacarıq səviyyələri müəyyənləşdirilmiş, yeni dərs ilindən müəllimlərin dərs yükü norması topladıqları bala uyğun verilmişdir.

2017-2018-ci tədris ilində siniflər üzrə 67000 ədəd dərslik Təhsil Nazirliyindən götürülərək rayonun ümumtəhsil məktəblərinə paylanmışdır. 8 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi tərəfindən Kəlbəcər Rayon Təhsil Şöbəsinə 130 ədəd parta, 13 ədəd lövhə, 120 ədəd elektrik lampası, 50 ədəd yanğınsöndürmə balonu, kağız və sair alınmışdır.

Təhsil Nazirliyinin müvafiq təlimatına əsasən 2017-2018-ci tədris ilində rayonun ümumtəhsil məktəblərində təmayülləşmə prosesini gücləndirmək məqsədilə rayonun 2, 11, 56 və 98 nömrəli ümumtəhsil məktəblərində təmayül siniflərinin yaradılması nəzərdə tutulmuşdur. Rayonun 2, 11 və 98 nömrəli ümumtəhsil məktəblərinin hər birində 20 şagird olmaqla "Humanitar", 56 nömrəli tam orta məktəbdə isə 22 şagird olmaqla "Texniki-riyaziyyat-iqtisadiyyat" təmayül sinifləri təşkil edilmiş, 2018-2019-cu tədris ilində təmayül siniflərin artırılması planlaşdırılır. Rayonun bütün təhsil işçiləri ürəkdən inanır ki, Prezidentimiz cənab İlham Əliyevin düşünülmüş xarici siyasəti nəticəsində doğma torpaqlarımız tezliklə işğaldan azad olacaq, pedaqoji kollektivlərimiz təhsildə daha böyük uğurlara imza atacaqlar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında

## ƏSASNAMƏ

**1.** Döyüş bayrağı əsgəri şərəf, sücaət və şöhrət rəmzidir. Döyüş bayrağı Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hər bir hərbi qulluqçusuna Vətənə sədaqətlə xidmət etmək, öz qanını və canını belə əsirgəmədən onu müdafiə etmək, Azərbaycan Respublikası dövlət sərhədinin toxunulmazlığını və təhlükəsizliyini təmin etmək, dövlət sərhədinin mühafizəsi üzrə tapşırıqları ləyaqətlə yerinə yetirmək, Vətən torpağının hər qarışını düşməndən qorumaq borcunu xatırlatmaq üçündür.

**2.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayrağı Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin iş otağında və Xidmətin Hərbi Şurasının zalında, hərbi birləşmələrin (Sərhəd Qoşunları, Çevik Hərəkət Qüvvələri, Sahil Mühafizəsi, Sərhəd Nəzarəti) və hərbi birləşmələr tərkibinə daxil edilməyən hərbi hissələrin döyüş bayraqları isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi nizamnamələrinə uyğun olaraq təyin edilmiş yerlərdə, Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birlikdə, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq daimi yerləşdirilir.

**3.** Hərbi hissənin döyüş bayrağı daim hərbi hissədə, döyüş meydanında isə həmin hərbi hissənin döyüş əməliyyatları bölgəsində olmalıdır.

**4.** Hərbi hissənin adının və nömrəsinin dəyişməsindən asılı olmayaraq, döyüş bayrağı hərbi hissədə həmişəlik qalır. Hərbi hissənin adının və nömrəsinin dəyişməsi döyüş bayrağı ilə birlikdə verilən təqdimatda qeyd olunur.

**5.** Hərbi hissənin bütün şəxsi heyəti döyüş bayrağını fədakarlıq və mərdliklə qorumalı, onun düşmənin əlinə keçməsinə yol verməməlidir. Döyüş bayrağı itirildikdə, hərbi hissənin komandiri və məsul hərbi qulluqçular qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunmalı, hərbi hissə isə ləğv edilməlidir.

**6.** Döyüş bayrağı rəsmi tədbirlərdə, matəm günlərində və matəm mərasimlərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birlikdə, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qaldırılır (asılır) və endirilir.

**7.** Dövlət Sərhəd Xidmətinin sərhəd gözətçi və köməkçi gəmiləri (katerləri) sərhəd hərbi dəniz bayrağı daşıyırlar. Sərhəd hərbi dəniz bayrağı gəmilərin (katerlərin) dövlət mənsubiyyətini və toxunulmazlığını, onların dəniz hüdudlarında Azərbaycan Respublikasının dövlət mənafeyini qorumağa hazır olduğunu bildirir. Dövlət Sərhəd Xidmətinin sərhəd gözətçi gəmiləri (katerləri) heç bir halda öz bayraqlarını düşmən qarşısında endirməməli, məhv olmağı düşmənə təslim olmaqdan üstün tutmalıdırlar. Bayraq döyüşdə vurulduğu halda dərhal yenisi ilə əvəz olunmalıdır.

**8.** Sərhəd hərbi dəniz bayrağı gəmi (kater) hərəkətdə ikən qafeldə, dayanacaqda olduqda isə arxa flaqştokda qaldırılır.

**9.** Vımpel sərhəd hərbi dəniz bayraqları verilmiş gəmilərin (katerlərin) qrot-stenqində (təkdorludursa - for-stenqində) qaldırılır, gəminin (katerin) dəniz kampaniyasında olduğunu və komandanlığının hər hansı tapşırığını yerinə yetirməyə hazır olduğunu bildirir. Vımpel daim, gecə-gündüz, hər cür havada, hərəkət zamanı və lövbər (çəllək, buraz) dayanacağında daşınır və endirilmir. Vımpel, yalnız gəmi (kater) dorlarından birinin stenqində vəzifəli şəxsin bayrağı və ya breyd-vımpeli qaldırılıqda və gəmi (kater) dəniz kampaniyasından çıxarıldıqda endirilir.

**10.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi rəisinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi qərargah rəisinin müvafiq hərbi dəniz bayrağı, gəmilər birləşməsi komandirinin isə breyd-vımpeli olur. Vəzifəli şəxslərin bayraqları və breyd-vımpelləri bu şəxslərin olduqları gəmilərdə onların olduğu müddətdə qaldırılır.

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri


Şəkil 1. Dövlət Sərhəd Xidmətinin döyüş bayrağının üz tərəfi


Şəkil 2. Dövlət Sərhəd Xidmətinin döyüş bayrağı (arxa tərəf)


Şəkil 3. Sərhəd Qoşunlarının döyüş bayrağı (arxa tərəf)


Şəkil 4. Çevik Hərəkət Qüvvələrinin döyüş bayrağı (arxa tərəf)


Şəkil 5. Sahil Mühafizəsinin döyüş bayrağı (arxa tərəf)


Şəkil 6. Sərhəd Nəzarətinin döyüş bayrağı (arxa tərəf)


Şəkil 7. Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının döyüş bayrağı (arxa tərəf)


Şəkil 8. Sərhəd dəstəsinin döyüş bayrağı (arxa tərəf)


Şəkil 9. Hərbi hissənin döyüş bayrağı (arxa tərəf)

**1.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları ikiüzlü qumaşdan, dəstəkdən və qotazlı qaytandan ibarətdir (şəkil 1-9).

**2.** Bayrağın qumaşı Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun üçrəngli, ikiqat ipək faydan hazırlanır, uzunluğu 150 sm, eni 90 sm-dir, kənarları üç tərəfdən qızılı rəngli ipək saçaqlarla köbələnmişdir.

**3.** Qumaşın üz tərəfi "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri şəklindədir (şəkil 1).

**4.** Qumaşın arxa tərəfində qırmızı zolağın ortasına ipək parçadan Dövlət Sərhəd Xidmətinin hündürlüyü 55 sm olan emblemi tikilir (şəkil 2-9).

**5.** Qumaşın arxa tərəfində yaşıl zolağın aşağı kənarı boyunca qızılı rəngli ipək sapla aşağıdakı sözlər yazılır:

*5.1.* Dövlət Sərhəd Xidmətinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti";

*5.2.* Sərhəd Qoşunlarının döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları";

*5.3.* Çevik Hərəkət Qüvvələrinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələri";

*5.4.* Sahil Mühafizəsinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi";

*5.5.* Sərhəd Nəzarətinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Sərhəd Nəzarəti";

*5.6.* Naxçıvan Əlahiddə sərhəd diviziyasının döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları Naxçıvan Əlahiddə Sərhəd Diviziyası";

*5.7.* sərhəd dəstəsinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları 00-cı (sərhəd dəstəsinin nömrəsi) sərhəd dəstəsi";

*5.8.* hərbi hissənin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti 0000 (hərbi hissənin nömrəsi) saylı hərbi hissə" (hərbi hissənin adı göstərilməklə).

**6.** Rəqəmlərin hündürlüyü 7 sm, hərflərin hündürlüyü 4,5 sm-dir. Hərbi hissənin adındakı hərflərin sayından asılı olaraq rəqəmlərin ölçüsü 5 sm-ə, hərflərin ölçüsü 4 sm-ə qədər azaldıla bilər.

**7.** Bayrağın dəstəyi en kəsiyinin diametri 4 sm, uzunluğu 250 sm olan girdə taxtadandır.

**8.** Dəstək tünd qəhvəyi boya ilə rənglənir, laklanır, aşağı ucunda metal halqa, yuxarı ucunda isə nikellənmiş fiqurlu ucluq olur.

**9.** Bayrağın qaytanı eşmə olub, qızılı rəngli ipəkdən hazırlanır, hər iki ucunda qotaz vardır. Qaytanın uzunluğu 270-285 sm-dir.

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin sərhəd hərbi dəniz bayraqlarının təsviri


Şəkil 10. Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisinin (katerinin) sərhəd hərbi dəniz bayrağı


Şəkil 11. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin sərhəd hərbi dəniz bayrağı


Şəkil 12. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi rəisinin sərhəd hərbi dəniz bayrağı


Şəkil 13. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi qərargah rəisinin sərhəd hərbi dəniz bayrağı


Şəkil 14. Sahil Mühafizəsinin gəmilər birləşməsi komandirinin breyd-vımpeli


Şəkil 15. Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisinin (katerinin) vımpeli

**1.** Sərhəd hərbi dəniz bayraqlarının (şəkil 10-15) yaşıl qumaşı ipək faydan hazırlanır. Bayrağın yuxarı sol dörddə birində (breyd-vımpelin və vımpelin solunda) ağ fonun aşağı kənarı boyunca iki dalğavarı mavi zolaq, ağ fonun üzərində sol tərəfdə qırmızı rəngli aypara və səkkizguşəli ulduz, sağ tərəfdə isə üzərinə lövbər kəndiri dolanmış mavi rəngli lövbər təsvir olunmuşdur.

**2.** Düzbucaqlı sərhəd hərbi dəniz bayrağının ölçüləri: uzunluğu 70 metrdən çox olan 2-ci dərəcəli gəmilər üçün - uzunluğu 180 sm, eni 115 sm; uzunluğu 70 metrədək olan 2-ci dərəcəli gəmilər üçün - uzunluğu 140 sm, eni 90 sm; 3-cü və 4-cü dərəcəli gəmilər və katerlər üçün - uzunluğu 90 sm, eni 65 sm. Nazik mavi zolağın eni 5 sm, qalın mavi zolağın eni 15 sm, zolaqlar arasındakı məsafə 5 sm; ayparanın yuxarı nöqtəsindən bayrağın yuxarı kənarına qədər və ayparanın aşağı nöqtəsindən bayrağın mavi zolağına qədər məsafə 5 sm, ulduzun xarici diametri 7 sm, lövbərin hündürlüyü 22 sm, eni 15 sm-dir. Sərhəd hərbi dəniz bayrağının ölçüləri gəmilərin və katerlərin ölçülərinə əsasən kiçildikdə nazik və qalın mavi zolaqların ölçüləri, zolaqlar arasındakı məsafə, ayparanın yuxarı nöqtəsindən bayrağın yuxarı kənarınadək və ayparanın aşağı nöqtəsindən bayrağın mavi zolağınadək məsafə və ulduzun xarici diametri də həmin nisbətdə kiçilir.

**3.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin bayrağı (şəkil 11) aşağı hissəsində xarici diametri 30 sm olan üç səkkizguşəli ulduz təsvir olunmuş sərhəd hərbi dəniz bayrağıdır.

**4.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi rəisinin bayrağı (şəkil 12) aşağı hissəsində xarici diametri 30 sm olan iki səkkizguşəli ulduz təsvir olunmuş sərhəd hərbi dəniz bayrağıdır.

**5.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi qərargah rəisinin bayrağı (şəkil 13) aşağı hissəsində xarici diametri 30 sm olan bir səkkizguşəli ulduz təsvir olunmuş sərhəd hərbi dəniz bayrağıdır.

**6.** Sahil Mühafizəsinin gəmilər birləşməsi komandirinin breyd-vımpeli (şəkil 14) iki şüa ilə sonlanan uzun ensiz yaşıl zolağı olan, kiçik ölçülü, konusşəkilli sərhəd hərbi dəniz bayrağıdır. Yaşıl zolaqda bayrağın ağ fonundan 10 sm sağda Sahil Mühafizəsinin fərqlənmə nişanı təsvir olunmuşdur.

**7.** Sərhəd gözətçi və köməkçi gəmilərinin (katerlərinin) vımpelləri (şəkil 15) iki şüa ilə sonlanan uzun ensiz yaşıl zolağı olan kiçik ölçülü, konusşəkilli sərhəd hərbi dəniz bayrağıdır.

**8.** Breyd-vımpelin və vımpelin ölçüləri: uzunluğu 70 metrdən çox olan 2-ci dərəcəli gəmilər üçün - uzunluğu 180 sm, eni 35 sm; uzunluğu 70 metrədək olan 2-ci dərəcəli gəmilər üçün - uzunluğu 150 sm, eni 25 sm; 3-cü və 4-cü dərəcəli gəmilər və katerlər üçün - uzunluğu 110 sm, eni 20 sm. Breyd-vımpelin və vımpelin ağ fonunun uzunluğunun eninə nisbəti 1:1,5-dir, şüalarının kəsiyinin uzunluğu vımpelin uzunluğunun 1/7-nə, zolağın iki şüadan ibarət sonluğunun eni bayrağın eninin 1/2-nə bərabərdir.

**9.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin sərhəd hərbi dəniz bayraqlarının hər iki üzü eynitəsvirli olur.

# Əhalinin keyfiyyətli enerji təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər

**Vəzifələr aydındır: əhalini elektrik enerjisi ilə fasiləsiz təmin etmək, energetika sistemini—həm istehsal edən sistemi, həm də paylayıcı sistemi müasirləşdirməkdir ki, Azərbaycanda ən müasir standartlara cavab verən energetika sistemi yaransın.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ölkəmizdə həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf bütün sahələrdə, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaratmışdır. Yaradılma tarixi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulur.

Son illər respublikamızın regionlarının sosial-iqtisadi inkişafına yönələn proqramların, həmçinin elektrik paylayıcı şəbəkələrdə islahatların növbəti mərhələsi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2015-ci il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin adı dəyişdirilərək "Azərişıq" ASC adlandırılmaqla ölkə ərazisində istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi "Azərişıq" ASC-yə həvalə edilmişdir.

Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması çərçivəsində bu işin yeni yaradılan "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə tapşırılması öz bəhrəsini verir. "Azərişıq" ASC-nin kollektivi paytaxtda və eləcə də regionlarda energetika sektorunda müsbət dəyişikliklərin aparılmasına maksimum səy göstərir.

Vurğulamaq lazımdır ki, "Azərişıq" ASC respublikamızın 57 rayon və şəhərini əhatə etməklə 7 Regional Enerji Təchizatı və Satışı İdarəsi yaratmışdır. Bunlar Bakı, Şimal, Cənub, Şimal-Qərb, Aran, Mərkəzi Aran və Qərb Regional Enerji Təchizatı və Satışı idarələridir. "Azərişıq" ASC-nin əsas missiyası istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz etmək, yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi, ondan səmərəli istifadə etmək, elektrik enerjisi istehlakçıları ilə əməkdaşlıqda diversifikasiyanı təmin etmək, ən müasir texnoloji yeniliklərə əsaslanan idarəetməni formalaşdırmaq, istehlakçılara göstərilən xidmətin keyfiyyətini yüksək səviyyədə təmin etmək və daim təkmilləşdirmək, elektrik enerjisinin texnoloji sərfiyyatını minimum səviyyəyə endirməkdir.

Hazırda respublikanın bütün RETSİ-lərdəki elektrik şəbəkələrində yeni güc mərkəzlərinin yaradılması, bütün qəsəbə və kəndlərin, bütövlükdə yaşayış məntəqələrinin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması işləri geniş şəkildə və böyük sürətlə davam etdirilir.

Ölkənin elektrik enerjisi ilə təchizatı məsələlərinə toxunan və bu sahədə islahatların aparıldığını bəyan edən Prezident İlham Əliyev "Azərişıq"ın yaradılmasından bir qədər sonra keçirilmiş Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: **"Biz ilin birinci rübündə elektroenergetika sahəsində ciddi islahatlar apardıq. "Azərişıq" qurumu yaradılmışdır. "Azərişıq" "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin əsasında yaradılmışdır. "Azərişıq" "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin əsasında qurulubdur və əsas məqsəd regionlarda elektrik enerjisi ilə təchizatı Bakının səviyyəsinə qadırmaqdır. Bax, bu idi əsas məqsəd. Çünki son illər ərzində Bakı şəhərində "Bakıelektrikşəbəkə" təşkilatı çox uğurla fəaliyyət göstərirdi. Artıq "Barmek"in dövrü çoxlarının yadından çıxıb. "Barmek" Azərbaycanı nə günə salmışdı?! "Bakıelektrikşəbəkə" o təsərrüfatı öz üzərinə götürənə qədər "Barmek"in təsərrüfatı nə gündə idi?! O günlər çox yaxşı ki, hamının yadından çıxıb. Amma o qaranlıq gecələr hamımızın yadındadır. Yəni, gənc nəsil yəqin ki, bunu xatırlamır, heç xatırlamasa yaxşıdır".**

Bakıdakı ənənəyə sadiq qalan "Azərişıq" Azərbaycanın qədim şəhəri olan Gəncədə də gözəl memarlıq abidəsinin yaradılmasına nail olmuşdur. Gəncənin qədim şəhərsalma üslubuna uyğun olaraq tikilən yarımstansiyaların birinci mərtəbəsi daş üzlüklə, ikinci mərtəbəsi isə qırmızı kərpicdən olmaqla xüsusi memarlıq üslubunda inşa edilib. İnşaat işləri zamanı 1200 metr məsafədə asfalt yol salınıb, ətraf abadlaşdırılıb, yaşıllıq zolaqları yaradılıb. Yarımstansiyanın foyesində ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Həmçinin 35/6 kv-luq "Nizami" yarımstansiyasında Qərb Regional Tədris Mərkəzi də yaradılmışdır.

Yarandığı çox qısa müddət ərzində "Azərişıq" ASC yeni yarımstansiyalar inşa etmiş, Bakı şəhərində "Buzovna-2", Şəki rayonunda "Göynük", Gədəbəy rayonunda "Gədəbəy". Bundan başqa 110 kv-luq 100-dən çox yarımstansiya təmir olunmuş, transformatorlar yenisi ilə əvəz olunmuş, kabel və hava xətti çəkilmişdir. Son dövrlərdə Bakı şəhərində və respublikamızın müxtəlif şəhər, qəsəbə və kəndlərində müxtəlif texniki dəyişikliklər aparılmışdır ki, bu da abonentlərin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılmasına imkan yaratmışdır.

Qeyd etmək lazımdır ki, "Azərişıq" ASC-nin məqsədyönlü fəaliyyəti sayəsində paytaxtda, eləcə də rayon mərkəzlərində, qəsəbə və kəndlərində yararsız, istismar müddəti başa çatmış köhnə transformatorlar yeni tip qapalı Komplekt Transformator Məntəqələri (KTM) ilə əvəz olunur.

Regionlarda, cəbhə bölgələrində yerləşən ərazilərdə energetika sistemi yenidən qurulur və müasirləşir. Təmas xəttində yerləşən Tərtər, Ağdam və Füzuli rayonlarında köhnəlmiş, istismara yararsız elektrik dayaqları dəyişdirilir, naqillər, transformatorlar yeniləri ilə əvəz edilir və müasir timpli yarımstansiyalar quraşdırılır. Ümumiyyətlə, bölgələrin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təminatı diqqət mərkəzindədir.

"Azərişıq" ASC ölkəmizin ayrı-ayrı bölgələrində gözəl memarlıq quruluşlu ofis binalarının tikintisini uğurla davam etdirir.

Şəbəkədə aparılan əsaslı yenidənqurma işləri və uçot sisteminin müasir texnologiyalar əsasında təkmilləşdirilməsi nəticəsində enerji haqlarının yığımında əsaslı dönüş yaradılmışdır.

"Azərişıq" ASC-nin kollektivi 2018-ci ildə ikiqat səylə çalışır, energetika sistemi dünya standartları səviyyəsində yenidən qurulur. Məhz bunun nəticəsidir ki, cari ilin ötən 9 ayında uğurlu nəticələrə imza atılmışdır.

Dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir. Bu istiqamətdə kadr və kadr hazırlığı problemini uğurla həll etmək, eləcə də cəmiyyətə tələb olunan təcrübəli kadr potensialını vermək üçün "Azərişıq" ASC-də Tədris Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə əmək bazarı üçün rəqabətə davamlı, yüksək ixtisaslı kadrlar hazırlanması işinin təşkilində qabaqcıl beynəlxalq və yerli mütəxəssislərin təcrübəsindən geniş istifadə olunur.

Bir sözlə, "Azərişıq" ASC öz missiyasını - istehlakçıların dayanıqlı, fasiləsiz elektrik enerjisi ilə təmin edilməsini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin dəstəyi ilə "Azərişıq" ASC-nin kollektivi kənd, qəsəbə və respublikamızın rayon və şəhərlərində paylayıcı elektrik şəbəkələrinin bərpası və yenidənqurma işlərini uğurla davam etdirəcək, energetika sektorunda müsbət dəyişikliklər baş verəcəkdir.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

*"Azərişıq" ASC və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

*13 oktyabr Dəmiryolçuların Peşə Bayramı Günüdür*

# Azərbaycanın dəmir yolları yeni inkişaf mərhələsindədir

**Azərbaycanın müstəqilliyinin ilk illərində böyük böhran və çətinliklərlə üzləşən ölkənin nəqliyyat sektoru iflic vəziyyətinə düşmüşdü. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyət kürsüsünə qayıdışından sonra bütün sahələrlə bərabər, nəqliyyat, o cümlədən dəmir yolu nəqliyyatı da yeni inkişaf mərhələsinə qədəm qoydu. Təsadüfü deyil ki, dəmir yollarını iqtisadiyyatın şah damarı adlandırırlar. Dahi öndər yaxşı bilirdi və qeyd edirdi ki, müasir nəqliyyat infrastrukturuna malik olmayan hər hansı bir ölkənin iqtisadi inkişafından söz gedə bilməz. Ona görə də bu sahəyə daim diqqət və qayğı göstərirdi. Onun təşəbbüsü ilə Azərbaycan Avropa-Qafqaz Asiya (TRASEKA) nəqliyyat dəhlizlərinə qoşuldu və Böyük İpək Yolunun bərpası üzrə həyata keçirilən məqsədyönlü işlər ölkəmizin iqtisadiyyatının gücləndirilməsində, nəqliyyat infrastrukturunun müasirləşməsində böyük rol oynadı.**

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat islahatları bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Bu gün Azərbaycanın yerləşdiyi coğrafi vəziyyəti, güclü iqtisadiyyatı və iqtisadi əlaqələri dəmir yolunun inkişafı üçün də əlverişli imkanlar yaratmışdır. Bu gün Azərbaycanın dəmir yolları müasir dünya standartlarına uyğunlaşdırılır ki, bunun da təməlində məqsədyönlü dövlət siyasəti dayanır. Son illərdə köklü islahatların həyata keçirilməsi, daha çevik innovativ idarəetmə sisteminin tətbiq edilməsi bu sahədə keyfiyyətcə yeni bir inkişaf mərhələsinin başlanğıcını şərtləndirmişdir.

Bu gün nəqliyyatın digər sahələri ilə bərabər, dəmir yolu sektoru da yenidən qurulur, yeni dəmir yolları çəkilir, beynəlxalq əhəmiyyətə malik qlobal lahiyələr reallaşdırılır. Ölkə başçısı cənab İlham Əliyevin dəmir yolunun müasirləşməsi üçün qarşıya qoyduğu bütün məqsədlər son üç ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili, hörmətli Cavid Qurbanovun rəhbərliyi və gərgin fəaliyyəti ilə yüksək keyfiyyətlə icra olunur. 2015-ci ilin 9 fevralında Cavid Qurbanovun "ADY" QSC-yə sədr təyin olunması ilə bu qurumun tarixində yeni bir inkişaf və yeniləşmə dövrünə qədəm qoyuldu, müasir standartlara cavab verən son texnologiyaların tətbiq olunması dövrü başlandı. Onu da qeyd edim ki, Cavid Qurbanovun "Azəryolservis" ASC-nin rəhbəri kimi fəaliyyəti dönəmində də ölkəmizin yol təsərrüfatı sahəsində möhtəşəm uğurlara imza atılmışdır. Yeni-yeni ən müasir standartlara cavab verən avtomobil yollarının, müasir körpü qurğularının, yeraltı və yerüstü keçidlərin inşası, qlobal miqyaslı yenidənqurma işləri də onun peşəkar, gərgin və məqsədyönlü fəaliyyətinin nəticəsində mümkün olmuşdur. Həmin təməl üzərində görülən işlər bu gün də uğurla davam etdirilir. Sevindirici haldır ki, Cavid Qurbanov "ADY" QSC-yə sədr təyin olunan ilk gündən cənab Prezidentin tapşırığına əsasən dəmir yolunda da yeni islahatlara start verildi. Yol təsərrüfatının sağlamlaşdırılması, vaqon və lokomotiv parklarının, rabitə və işarəvermə sisteminin yeniləşməsi üçün müasir avadanlıqların alınması və digər vacib işlər uğurla həyata keçirilməyə başladı. Belə ki, 2015-ci ilin martında "ADY" QSC ilə Rusiya Federasiyasının F.Dzerjinksi adına "Uralvaqonzavod" Elmi-İstehsalat Korporasiyası arasında 3100 müxtəlif təmayüllü yük vaqonlarının alınması ilə bağlı müqavilə imzalanmış və yeni yük vaqonları ölkəmizə gətirilmişdir. Bundan başqa, 10 ədəd teplovoz və 4 ədəd yük daşımalarında istifadə üçün sabit cərəyanla işləyən elektrovoz da alınmışdır.

Ötən 3 il ərzində dəmir yolunun bütün təsərrüfatlarında təmir-tikinti, yenidənqurma işləri də intensiv olaraq aparılır. Belə ki, 2015-ci ildə Bakı və Sumqayıt şəhərləri arasında olan sərnişin sıxlığının aradan qaldırılması məqsədilə Bakı-Xırdalan-Sumqayıt arasında əvvəllər mövcud olan dəmir yolu xəttinin əsaslı təmirinə başlanılmış və sentyabr ayının 2-də işlər başa çatdırılmışdır. Bakı sərnişin, Xırdalan, Sumqayıt sərnişin stansiyalarının stansiya yolları və yoldəyişənləri yenilənmiş, Bakı-sərnişin və Sumqayıt sərnişin stansiyalarında turniketlər və pos-terminallar quraşdırılmışdır. Bakı-Sumqayıt dəmir yolu xətti üzrə hərəkət edəcək "Stadler Raul Group" şirkətinin istehsalı olan KİSS markalı ikimərtəbəli elektrik qatarları alınmışdır. 2015-ci ilin 12 sentyabrında Bakı sərnişin stansiyasında ilk qatarın yolasalma mərasimi keçirilmişdir. Tədbirdə cənab İlham Əliyevin işrirak etməsi vətəndaşlarımızın rahat, əlverişli nəqliyyat xidmətləri ilə təmin olunmasına dövlətimizin göstərdiyi qayğının, ölkə dəmir yolçularının işinə verilən qiymətin əyani təzahürüdür.

2017-ci il fevralın 10-da "ADY" QSC-nin inzibati binasında yenidənqurma işləri başa çatdırılmış və açılış mərasimində cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. İnzibati binada işlər ən yüksək səviyyədə aparılmış, binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hər cür iş şəraiti yaradılmışdır. Bütün otaqlar yeni mebel dəstləri və ən müasir avadanlıqlarla təchiz olunmuşdur.

Burada qatarların hərəkətinin onlayn və GPS izləmə sistemləri tətbiq edilmişdir. Bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz edilmişdir. Ətraf ərazidə əsaslı abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülmüşdür. İnzibati binada şəhid olmuş dəmiryolçuların xatirəsini əbədiləşdirmək üçün onların fotolarından ibarət guşələr yaradılmışdır. 280 nəfərlik akt zalı və müasir yeməkxana da təmirdən sonra işçilərin ixtiyarına verilmişdir.

Görülən yenidənqurma işlərdində Bakı Dəmir Yolu vağzalında aparılan əsaslı təmir işlərini də qeyd etmək lazımdır. 2015-ci ilin əvvəlində təmirə başlanılmış vağzalın binasının fasadı memarlıq üslubunun saxlanılması ilə yeni göz oxşayan görkəmə salınmış, bilet satışı, kassalar, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunmuş, eskalatorlar yenisi ilə əvəzlənmiş, yük, sərnişin və əlillər üçün liftlər quraşdırılmışdır. Burada müasir standartlara cavab verən ticarət və iaşə obyektləri, ana-uşaq otaqları, otel və gözləmə zalı, saxlama kameraları sərnişinlərin istifadəsinə verilmişdir. Sərnişinlərin pulsuz olaraq Wi-Fi sistemindən istifadə etmələri də təmin olunmuşdur. Vağzalda giriş-çıxışı təmin etmək üçün 8 tunel də yaradılmışdır. Binanın ikinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq, bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə 3 qurum — "Azərişıq" və "Azərsu" ASC-lər, həmçinin "Azəriqaz" İB tərəfindən 45 növ xidmət göstərilir.

Vətəndaşlara regionlarda "ASAN xidmət" mərkəzlərinin olmadığı yerlərdə dövlət xidmətləri göstərilməsi üçün "ASAN qatar" xidməti yaradılmışdır. Dövlət başçısının tapşırığı əsasında hazırlanmış səyyar "ASAN qatar" 4 vaqondan ibarətdir.

Qatarda 4 dövlət orqanına 9 növ xidmət göstərilməsi üçün bütün lazımi şərait yaradılıb. Burada əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlara əlçatanlığını təmin etmək və region sakinlərinin məmnunluğuna nail olmaqdır.

Bu gün Azərbaycan həm regionda, həm də dünyada dəmir yolu sahəsində böyük tranzit ölkəyə, logistik mərkəzə çevrilib. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan dəmir yolu sahəsində beynəlxalq layihələrin reallaşmasının fəal iştirakçısıdır. Ölkəmizin həyata keçirdiyi ən iri və mühüm beynəlxalq əhəmiyyətli layihələrdən biri Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısının istifadəyə verilməsidir. Bu, ölkəmizin reallaşdırdığı ən böyük layihələrdəndir. 2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılış mərasimi keçirildi. Mərasimdə Azərbaycan Prezidenti cənab İlham Əliyev, birinci vitse-prezident Mehriban xanım Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstan, Qazaxıstan və digər ölkələrin rəsmi nümayəndələri iştirak etdilər. Tədbirdə çıxış edən ölkə başçısı qeyd etdi ki, bu layihə strateji əhəmiyyətli layihədir. Uzunluğu 850 km-dir, onun da 504 kilometri ölkəmizin ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur və bu yol üç ölkəni və qitələri birləşdirir. Artıq BTQ dəmir yolu marşrutu ilə yüklərin daşınmasına başlanılıb.



Ölkəmizin önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir. "Şimal-Cənub" dəhlizinin yaradılması da Azərbaycan üçün çox böyük tarixi hadisədir. Bu dəhliz Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Bu layihənin icrası çərçivəsində Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələri yerinə yetirib. Cənab Prezident qeyd edib ki, biz böyük yükləri gözləyirik. Ona görə də mövcud olan dəmir yolu daha yaxşı vəziyyətə gətirilməlidir. Dəmir yolunun sürəti artmalıdır. Ona görə də Bakı-Astara, Bakı-Yalama dəmir yolunun təmiri ilə bağlı işlər görməliyik. Bundan başqa, ölkəmizdə turizmin inkişafı üçün Ləki-Qəbələ dəmir yolunun tikintisi təmin ediləcək. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir və dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək. İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 km. dəmir yolunun çəkilişi və Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikintisi də yekunlaşıb və artıq sınaq qatarı sərhədi yeni tikilmiş körpü vasitəsilə keçib. Hazırda Astarada dəmir yolu stansiyasının və yüklərin boşaldılması üçün terminalların inşası davam edir. Proqnozlara əsasən, dəhliz tam gücü ilə fəaliyyət göstərdiyi təqdirdə, tranzit məsafəsi və tranzit vaxtı iki-üç dəfə az olacaqdır. Bundan başqa, dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin genişlənməsinə imkan verəcək. Cənub-Qərb Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində işlər sürətlə aparılır. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini azaldır.

Son vaxtlar dəmir yolunun Lokomotiv parkının yeniləşməsi istiqamətində də mühüm addımlar atılır. Bu istiqamətdə "Azərbaycan Dəmir Yolları" QSC ilə Fransanın "Alstom Transportation S.A." şirkəti arasında dəyişən cərəyanla işləyən 40 ədəd yük, 10 ədəd sərnişin lokomotivlərinin alınması ilə bağlı müqavilə çərçivəsində artıq Fransanın Belfort şəhərində şirkətin "ADY" QSC üçün istehsal etdiyi birinci Prima M4 sərnişin lokomotivinin və Qazaxıstanın "Astana" xüsusi iqtisadi zonasının ərazisində yerləşən EKZ zavodunda ilk yük lokomotivi olan Prima T 8-in (AZ8A) təqdimat mərasimi olub. Bu yaxınlarda iki sistemli sərnişin lokomotivinin dəmir yolunun Puta-Qaradağ mənzilində sınaq yürüşü keçirilib. Saatda 150 km sürət dəmir yolunun tarixində bir ilkdir. Beynəlxalq standartlara uyğun sərnişindaşıma xidmətlərinin həyata keçirilməsini təmin edəcək və sərnişinlər mənzil başına daha tez və təhlükəsiz çatıdırılacaqdır. Bir sözlə, bu gün Azərbaycanda dəmir yolu sahəsinin ən müasir dünya tələbləri səviyyəsində olması üçün nəzərdə tutulmuş işlər ardıcıl olaraq həyata keçirilir. Bütün əldə olunan uğurların təməlində cənab Prezident İlham Əliyevin bu mühüm sahəyə göstərdiyi diqqəti dayanır. Sentyabr ayının 18-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun Prezidentin Sərəncamına əsasən "Şöhrət" ordeni ilə təltif olunması bütün dəmiryolçuları sevindirmişdir.

Dəmiryolçuların peşə bayramı ərəfəsində bütün həmkarlarımı təbrik edir, onlara ölkə dəmir yolunun inkişafı naminə fəaliyyətlərində uğurlar arzulayıram.

**Kənan CƏFƏROV,**
**Azərbaycan Dəmir Yolları QSC Texniki Xidmət və İstismar İdarəsinin rəis müavini, YAP Nəsimi rayon təşkilatının üzvü.**







# Cəmiyyətin tərəqqisi hər zaman təhsilin inkişafından asılı olub

**Oktyabrın 5-də Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sumqayıt şəhərində 28 May mədəniyyət evində Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib.**

İcra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, ümumtəhsil məktəblərinin müəllim kollektivi, ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Fuad Bədəlov məruzə ilə çıxış edib. Bildirib ki, Beynəlxalq Müəllimlər Günü ilə bağlı qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də UNESCO tərəfindən verilib. Azərbaycanda Müəllimlər Günü isə 2000-ci ildən etibarən qeyd edilir. Hazırda dünyanın 100-dən çox ölkəsində bu tarix müəllimlər günü kimi keçirilir.



Çıxış edən Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov müəllimləri bayram günü münasibətilə təbrik edib. O qeyd edib ki, bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də çoxminlik müəllim ordusu üçün əziz gündür - pedaqoq adını daşıyanlar özlərinin peşə bayramını qeyd edirlər. Bəşəriyyətin min illər boyu keçdiyi inkişaf yolu sübut edir ki, hər bir tarixi mərhələdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından, onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olub. Hər bir insanın dünyanı dərk etməsində, yeni biliklər qazanmasında müəllim ən yaxşı köməkçi olmuşdur. Ulu öndər Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirərək deyib: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

İcra hakimiyyətinin başçısı əlavə edib ki, bu gün Prezident İlham Əliyev də müəllim əməyini yüksək qiymətləndirərək onlara daim diqqət və qayğı göstərir. Təhsil müəssisələrində çalışan işçilərin əmək haqlarının və tələbələrin təqaüdlərinin artırılması haqqında Azərbaycan Prezidentinin sərəncamları, habelə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb Proqramı" və digər bu kimi tədbirlər dövlətimizin təhsil sahəsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Malik İsaqov vurğulayıb ki, rayon üzrə 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir, onlardan 14-ü yeni tikilib, 18-i əsaslı təmir olunub. Eyni zamanda, 2017-ci ildə Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi üçün yeni bina tikilərək şagird və müəllim kollektivinin istifadəsinə verilib. Hazırda rayon ümumtəhsil məktəblərində 741 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Bu günə qədər rayondan 10 nəfər "Əməkdar müəllim" fəxri adına və 10 nəfər "Tərəqqi" medalına layiq görülüb. Cari ildə 457 məzundan 390-ı ali məktəblərə sənəd verib və onlardan 285-i qəbul olub. Qəbul imtahanlarında iştirak edən 48 məzun 500-600 arası, 27 məzun isə 600-dən yuxarı bal toplayıb. Bu il Qubadlı rayonu üzrə qəbul faizi 73 faiz təşkil edir. Ötən il isə Qubadlı rayonu ali məktəblərə qəbul imtahanlarının nəticəsinə görə respublika üzrə 1-ci yerdə olub. Bütün bunlar Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu təhsil siyasətinin nəticəsidir.

Bildirilib ki, 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Prezident İlham Əliyevin sərəncamı ilə Qubadlı şəhər 2 saylı tam orta məktəbin direktoru Yavər Məmmədov "Tərəqqi" medalına layiq görülüb. Təhsil Nazirliyi tərəfindən isə 2 müəllimə döş nişanı, 3 müəllimə fəxri fərman təqdim olunub.

Tədbirdə fəaliyyətində fərqlənən bir qrup müəllimə rayon icra hakimiyyətinin fəxri fərmanları verilib.

Sonra Sumqayıt Regional Mədəniyyət İdarəsinin Qubadlı rayon bölməsinin hazırladığı konsert proqramı təqdim olunub.

**AZƏRTAC**

# Polo üzrə Avropa birinciliyində Azərbaycan millisinin qələbəsi hər kəsdə qürur doğurur

Dahi öndər Heydər Əliyevin "Azərbaycan bütün dünyaya günəş kimi doğacaq" kimi məşhur kəlamı sentyabr ayının son dekadasında İtaliyanın qədim Toskaniya diyarına Azərbaycan millisinə dəstək olmaq üçün gəlmiş bütün həmvətənlərimizin keçirdiyi qürur və fəxarət hisslərinin qısa leytmotivini mükəmməl formada ifadə edir.

Turnirdən öncə peşəkar idmançıların və idman mütəxəssislərinin yarışın debütantı olan Azərbaycan yığması haqqında düşüncə və gözləntilərinin oyundan-oyuna kəskin dəyişməsi böyük maraq doğururdu.

Həqiqətən də, turniri işıqlandıran xarici mətbuatdakı millimizin sərgilədiyi qeyri-adi oyun haqqında xoş sözlər və təriflər hər kəsdə Odlar Yurdunun qədim atçılıq ənənələri, idmançılarımızın əzmkarlığı və mübarizliyi barədə geniş təsəvvür yaradırdı. Məsələn, "pololine.tv" ixtisaslaşmış idman portalında final görüşü haqqında verilmiş reportajda "Azərbaycan yığmasının məğrurcasına mübarizə aparması, turnir boyu oyunlarında böyük inkişaf nümayiş etdirməsi" ifadələrinin vurğulanması, Amerika Birləşmiş Ştatlarının nüfuzlu "gcpolo.com" saytında "odlar və buzlar yurdu olan Azərbaycanın" milli yığmasının dünyanın ən inkişaf etmiş komandalarından biri kimi göstərilməsi və noyabr ayının 24-də ABŞ-nın Mayami şəhərində "Grand Champions Polo Club"da təşkil olunacaq beynəlxalq kubok turnirində Azərbaycan komandasının ABŞ idmançıları üçün güclü rəqib olacağının xüsusi qeyd olunması və həmin portalın "Facebook" səhifəsində final yarışı öncəsi Azərbaycan millisinə uğur arzulanması, İtaliyanın "cavallo2000.it" məlumat portalında final görüşündə İtaliya yığmasına qarşı Azərbaycan millisinin böyük sürpriz olmasının qeyd edilməsi, yığmamızın öz oyun taktikası və peşəkarlığı ilə hamını təəccübləndirməsinin, komandamızın güclü azarkeş dəstəyinin olmasının təsbitlənməsi hər bir həmvətənimizdə fəxarət hissləri yaradırdı.




Bu gün çempionatın nəticələrini dərindən təhlil edərkən, xüsusən də İrlandiya və İtaliya yığmalarına qarşı millimizin keçirdiyi son iki oyunun gərginliyini yada salaraq həmin hissləri təkrar-təkrar keçirərkən mükəmməl və mübariz oyun nümayiş etdirən komandamıza qarşı təzyiqlərin göstərilməsini, müxtəlif üsullarla idmançılarımızın məğlubiyyətə uğradılması cəhdlərini daha yaxşı dərk edirik.

Azərbaycan millisinin bu böyük və möhtəşəm nailiyyəti, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmanın, o cümlədən də atçılıq idmanının inkişafına göstərdiyi ali diqqət və qayğının konkret təcəssümüdür. Eyni zamanda, bu nəticə millimizin çempionata hazırlaşması üçün Almaniyanın Mühlen şəhərində təlim-məşq toplanışlarının təşkilindən tutmuş, rəqib komandaların oyun taktikasının öyrənilməsinə və onlara qarşı əks-fəndlərin düşünülməsinə qədər Azərbaycan Respublikasının Atçılıq Federasiyası tərəfindən həyata keçirilmiş ciddi fəaliyyətin gerçək ifadəsi olmuşdur.

Bütün Azərbaycan idmansevərlərinə, polo azarkeşlərinə böyük bir bayram bəxş etmiş, Avropa meydanlarında üçrəngli bayrağımızı ucaltmış idmançılarımıza dərin təşəkkürümüzü bildirir, gələcəkdə daha yüksək zirvələrin fəth edilməsini arzulayırıq!

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd mühafizəsinin etibarlı təminatı sahəsində tədbirlər davam etdirilir.**

2018-ci ilin 30 sentyabr tarixində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasına nail olunmuşdur.

Həmin tarixdə saat 03:10 radələrində alınmış əməliyyat məlumatı əsasında DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində, Yardımlı-Arus kəndi istiqamətində əməliyyat-axtarış tədbiri həyata keçirilmiş, "VAZ-2107" markalı 90-BB-979 və "Mercedes" markalı 90-BK-471 dövlət qeydiyyat nömrə nişanlı avtomobillər baxış keçirilməsi üçün saxlanılmışdır.

Saxlama zamanı "Mercedes" markalı avtomobil tabesizlik göstərmiş və Masallı rayon istiqamətində hərəkət edərək 1 kq narkotik maddəni əraziyə atmışdır. Qarşılıqlı əlaqədə olan Masallı rayonu polis şöbəsinin əməkdaşları tərəfindən həmin avtomobil saxlanılmış, avtomobildə olan 1 nəfər şəxs polis əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayaraq meşəlik əraziyə qaçmağa nail olmuşdur.

Əraziyə və avtomobillərə baxış zamanı 8600 qram heroin və tiryəkəbənzər narkotik maddə aşkar olunmuşdur. Saxlanılmış vətəndaşların şəxsiyyətləri dəqiqləşdirilmiş, onların Yardımlı rayon sakinləri 1974-cü il təvəllüdlü Şirbəyev Habil Yaşılxan oğlu, 1983-cü il təvəllüdlü Qurbanov Zaur Camalxan oğlu və Salyan rayon sakini 1993-cü il təvəllüdlü Ağayev Malik İlyas oğlu olmaları müəyyən edilmişdir. Hadisə yerindən qaçmış 4-cü şəxsin axtarışı üzrə müvafiq tədbirlər həyata keçirilir.

Hadisə ilə əlaqədar DSX-nin istintaq və təhqiqat idarəsi tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmışdır, zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

* * *

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.**

2018-ci il sentyabr ayının 28-də DSX Sahil Mühafizəsinin texniki müşahidə məntəqələri tərəfindən Astara rayonunun Şahağacı kəndi istiqamətində naməlum üzmə vasitəsi aşkar olunmuş və hərəkəti nəzarətdə saxlanılmışdır. DSX Sahil Mühafizəsinin həmin istiqamətdə xidmət aparan sərhəd gözətçi gəmisinə göstərilən əraziyə doğru hərəkət etməsi göstərişi verilmiş, eyni zamanda Astara və Lənkəran rayonları üzrə sahilboyu həssas nöqtələr nəzarətə götürülmüşdür.

Aşkar olunmuş üzmə vasitəsi qısa müddət ərzində Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsini tərk etmişdir. Həmin üzmə vasitəsinin ərazi sularımızdakı hərəkət trayektoriyası və koordinatları əməliyyat müşahidəsinə götürülmüş, 30 sentyabr tarixində 2 nəfər heyət üzvü ilə rejim sularına çıxmış "KƏ-226" bort nömrəli "Mariner-75" mühərrikli taxta qayığın həmin koordinatlara yaxınlaşması müəyyən edilmişdir. Həmin qayıq sahilə yan alarkən sərhədçilərə tabesizlik göstərərək dənizdə sahildən 200 metr məsafədə manevrlər etmiş, hərəkət zamanı qayıqdan 2 ədəd bağlama suya tullanılmışdır.

Qayığın heyət üzvləri - Astara rayon sakinləri 1977-ci il təvəllüdlü Şabanov Ramin Naib oğlu və 1995-ci il təvəllüdlü Əlizadə Niyaz Rufulla oğlu saxlanılmış, qayığın manevr etdiyi koordinatlara baxış keçirilmiş və dənizə onlar tərəfindən atılmış 2 ədəd bağlama aşkar olunaraq götürülmüşdür. Baxış zamanı bağlamalarda ümumi çəkisi 2 kq 200 qram olan heroin olması müəyyən edilmişdir.

İlkin araşdırma zamanı saxlanılan şəxslər həmin narkotik vasitələrin onlar tərəfindən götürülməsini və sahilə çıxarkən sərhədçilərin keçirdiyi yoxlama zamanı ifşa olunacaqlarından ehtiyat etdikləri üçün dənizə tulladıqlarını etiraf etmişlər.

Fakt üzrə zəruri əməliyyat və istintaq tədbirləri davam etdirilir.

# “Buta Airways” Gürcüstanın məşhur kurortuna birbaşa aviareys açır

**14 iyun 2019-cu il tarixindən etibarən “Buta Airways” aşağıbüdcəli aviaşirkəti Gürcüstanın məşhur kurortu Batumiyə birbaşa aviareyslərə başlayacaq.**




Batumi loukosterin Gürcüstanda ikinci istiqaməti olacaq. Belə ki, aviaşirkət artıq Bakıdan Tbilisiyə müntəzəm reyslər yerinə yetirir.

Aviaşirkətin digər istiqamətləri kimi Bakı-Batumi (IATA: BUS) istiqaməti üzrə də minimal tarif 29 avro (bir tərəfə) təşkil edəcək. Uçuşlar həftədə iki dəfə - cümə və bazar günləri yerinə yetiriləcək.

Aviabiletləri artıq aviaşirkətin rəsmi internet saytında (“Büdcə” və “Standart” tarifləri ilə, həmçinin aviaşirkətin satış ofislərində (“Super” tarifi ilə) əldə etmək mümkündür.

Lou-kost aviaşirkət olaraq, “Büdcə” minimal tarifdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, hava limanında qeydiyyat, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətlər ödəniş müqabilində təklif edilir. 10 kq-dək çəkisi olan əl yükü, çəkisi 23 kq-dək olan baqaj və hava limanında ödənişsiz qeydiyyatı nəzərdə tutan “Super” tarifi üzrə aviabiletləri satış ofislərində əldə edə bilərsiniz. Saytda onlayn-qeydiyyat uçuşdan 24 saat əvvəl açılır və bütün tariflərdə pulsuzdur.

Batumi Tbilisidən sonra Gürcüstanın məşhurluğuna görə ikinci turist şəhəridir. O, Qara dənizin şərq sahilində, Türkiyə ilə sərhədə yaxın yerləşir. Batumi sahil boyu bulvarı ilə məşhurdur. Burada gəzərkən şəhərin bir çox maraqlı diqqətəlayiq yerlərini görə, ecazkar mənzərənin gözəlliyindən həzz almaq mümkündür.

Bütün yenilikləri və xəbərləri “Buta Airways”in sosial şəbəkələrdəki səhifələrində izləmək mümkündür:

- facebook.com/ButaAirways
- instagram.com/ButaAirways
- twitter.com/ButaAirways
- t.me/Buta_Airways

“Buta Airways” Azərbaycanın ilk aşağı büdcəli aviaşirkətidir və “Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) struktur bölməsidir. 2016-cı ilin dekabrında əsası qoyulmuşdur. İlk reys 2017-ci il sentyabrın 1-də yerinə yetirilmişdir. Aviaşirkətin donanması müasir “Embraer” təyyarələrindən ibarətdir. Aviaşirkət Bakıda, Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşir.

Qeyd edək ki, cari ilin 6 oktyabr tarixindən etibarən loukoster həmçinin Türkiyə kurortu İzmirə reyslər yerinə yetirməyə başlayacaq.

**“Buta Airways” aviaşirkətinin mətbuat xidməti.**

# “AzerGold” QSC yazı müsabiqəsində fərqlənən tələbələri mükafatlandırıb

**4 oktyabr tarixində “AzerGold” QSC-nin inzibati binasında “Mənim təcrübə hekayəm” adlı yazı müsabiqəsinin yekunlarına həsr olunan tədbir baş tutub. Cəmiyyətin mərkəzi ofisində və Çovdar filiz emalı sahəsində istehsalat təcrübəsi keçən tələbələr arasında keçirilən sayca ikinci yazı müsabiqəsində “ADA” Universitetini və Azərbaycan Dövlət Neft və Sənaye Universitetini (ADNSU) təmsil edən tələbələr iştirak edərək, öz yazılarında istehsalat təcrübəsi haqqında təəssüratlarını bölüşüb və topladıqları biliklərdən ətraflı söz açıblar.**




Yazıların bədii və ədəbi keyfiyyəti, informasiya dolğunluğu və digər meyarlar əsasında qiymətləndirilməsi nəticəsində birinci yeri ADNSU-nun geologiya fakültəsində təhsil alan İsmayıl İsmayılov, ikinci yeri “ADA” Universitetinin iqtisadiyyat fakültəsində təhsil alan Saleh Salehov, üçüncü yeri isə “ADA” Universitetinin biznesin idarəolunması fakültəsində təhsil alan Kəmalə Əfəndiyevə tutub. Müsabiqənin qalibləri pul mükafatları və müvafiq sertifikatlarla təltif olunublar.

Tədbirdə iştirak edən tələbələr keçdikləri təcrübənin onların karyerasında böyük rol oynayacağını qeyd edərək yaradılan bu imkana görə “AzerGold” QSC-yə öz minnətdarlığını bildiriblər. Öz növbəsində “AzerGold” QSC-nin mütəxəssisləri tələbələrin peşə biliklərini və təcrübə zamanı davranışını yüksək qiymətləndirərək onlara gələcək əmək fəaliyyətlərində uğurlar arzu ediblər.

Qeyd edək ki, “AzerGold” QSC əlvan metal sənayesinin davamlı və dayanıqlı inkişafını təmin etmək üçün kadr potensialının möhkəmləndirilməsinə böyük önəm verir. Bu məqsədlə həyata keçirilən tədbirlər çərçivəsində Cəmiyyət Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti və “ADA” Universiteti ilə geniş əməkdaşlıq edir. Qurulan əməkdaşlıq çərçivəsində artıq 60 tələbə “AzerGold” QSC-də istehsalat təcrübəsi keçib.

# Liftin kabinəsinin düşməsi nəticəsində baş verən ölüm faktı ilə əlaqədar cinayət işi başlanıb

**Oktyabrın 4-də saat 12 radələrində paytaxtın Nəsimi rayonu ərazisində “Nəsimi-3” Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti tərəfindən idarə olunan onmərtəbəli yaşayış binasında Cəmiyyətin idarə heyətinin sədri Soltanməcid Əzizovun texniki təhlükəsizlik qaydalarına əməl etmədən verdiyi göstəriş əsasında lift təmir edilərkən kabinənin 9-cu mərtəbədən şaxtada təmizlik işləri aparan Mahirə Yusifovanın üstünə düşməsi nəticəsində sonuncu aldığı xəsarətlərdən hadisə yerində vəfat edib.**

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, rayon prokurorluğunun və polis idarəsinin əməkdaşları dərhal həmin ünvana gedərək məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçiriblər. Hadisə yerində şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (Səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

S.Əzizov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 09 iyun 2018-ci il tarixində elan edilmiş fiber optik kabellərin istismarında tələb olunan alətlərin satınalınması üzrə açıq tender prosedurunun qalibi “MAYBO” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC ilə “MAYBO” MMC arasında 04 oktyabr 2018-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 31 may 2018-ci il tarixində elan edilmiş PVC boruların satınalınması üzrə açıq tender prosedurunun qalibi “Best Clima” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC ilə “Best Clima” MMC arasında 05 oktyabr 2018-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 27 may 2018-ci il tarixində elan edilmiş fiber optik kabellər və TPP kabelərin satınalınması üzrə açıq tender prosedurunun qalibi “Sidra Group” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC ilə “Sidra Group” MMC arasında 03 oktyabr 2018-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar “Respublika” qəzetinin 21 avqust 2018-ci il tarixli sayında dərc edilmiş açıq tender elanının

“Lot 1 Bakı şəhəri üzrə mənzil növbəsində olan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satınalınması (Abşeron daxil olmaqla):

- 31 ədəd 1 otaqlı mənzil;
- 114 ədəd 2 otaqlı mənzil;
- 209 ədəd 3 otaqlı mənzil.”

hissəsi

“Lot 1 Bakı şəhəri üzrə mənzil növbəsində olan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satınalınması (Abşeron daxil olmaqla):

- 72 ədəd 1 otaqlı mənzil;
- 250 ədəd 2 otaqlı mənzil;
- 69 ədəd 3 otaqlı mənzil.”

kimi oxunsun.

## Ağsu Rayon İcra Hakimiyyəti
## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot-1.** Ağsu şəhərində çoxmənzilli binalarda dam örtüklərinin təmirinin satınalınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar Lot 1. üzrə 50-00 (əlli) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender Komissiyasından ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

İşlərin aparılması 2018-ci ilin 30 dekabrına kimi başa çatdırılmalıdır.

İştirak haqqı Azərbaycan Respublikası Ağsu Rayon İcra Hakimiyyətinin KBSB-nin Ağsu rayon filialındakı hesabına köçürülməlidir.

*VÖEN: 3500019981 Ağsu Rayon İcra Hakimiyyəti*

*VÖEN: 3500052631 Ağsu Maliyyə İdarəsi*

*KBSB-nin Ağsu filialı; Kodu: 200543, VÖEN: 9900003611*

*m\h: AZ37NABZ01350100000000001944;*

*h\h: AZ22AİİB36010019445400201154;*

*S.W.İ.F.T Bik: AİİBAZ 2 X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender təklifinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, yüksək keyfiyyətə, iddiaçıların analoji işlər üzrə təcrübəsinə, kadr potensialına, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün 12 noyabr 2018-ci il saat 17:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər.

*— tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*— iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*— Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*

*— iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*— iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş son maliyyə hesabatlarının surəti;*

*— iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*— iddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat.*

İddiaçıların təqdim etdikləri tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində olmalıdır.

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 21 noyabr 2018-ci il saat 17:00-dək ikiqat zərfdə bağlanmış, möhürlənmiş şəkildə Ağsu şəhəri, N.Tağızadə küçəsi 5 a nömrəli ünvana təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır.

Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim edilir. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirilməyə buraxılmır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

Tender prosedurunda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

İddiaçıların tender zərfləri 22 noyabr 2018-ci il saat 11:00-da Ağsu şəhəri, N.Tağızadə küçəsi, 5a nömrəli ünvanda açılacaqdır.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

Ağsu şəhəri, N.Tağızadə küçəsi 5a, telefon: 020226-54-88.

**Tender Komissiyası.**

## ELAN

Gəncə Apellyasiya Məhkəməsi “Digər maşın və avadanlıqların satınalınmasını” kotirovka sorğusu üsulu ilə həyata keçirir.

Maraqlanan təşkilatlar kotirovka sorğusunda iştrak etmək üçün sənədləri 26 oktyabr 2018-ci il saat 18.00 tarixinədək təqdim edə bilərlər.

**Ünvan:** *Gəncə şəhəri, Atatürk prospekti 252.*

## Bakı Dövlət Universitetinin Tender komissiyasının
## BİLDİRİŞİ

Bakı Dövlət Universitetinin “Respublika” qəzetində 02.10.2018-ci il tarixində elan olunmuş kotirovka prosedurunun LOT 1 üzrə “Aldib” MMC, LOT 2 üzrə “Tachızat LT” MMC, LOT 3 üzrə “Arneb” MMC, LOT 4 “Alnaır” MMC, LOT 5 üzrə “Tachızat LT” MMC, LOT 6 üzrə “Benet” MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

# Tanınmış kimyaçı alim

**Azərbaycan Milli Elmlər Akademiyasının akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun laboratoriya rəhbəri, tanınmış alim, AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Eldar Bahadır oğlu Zeynalovun 70 illik yubileyi qeyd olunur.**



